22 may 2020-ci il
№14 (8878)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

Sizin kimi Prezidentimiz olduğuna görə çox şanslıyıq ⇨səh.2

Təhsil naziri tələbələrlə videogörüş keçirib ⇨səh.5

Təhsil Nazirliyi yanında İctimai Şuranın onlayn iclası ⇨səh.5

Sadə müəllim, zəhmətkeş alim ömrü ⇨səh.6

# Məsafədən təhsil geniş imkanlar yaradır



Hazırkı vəziyyətdə "bir-biri ilə bağlantısı olan məktəblər" və təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir, çünki sizə məlumat vermək istəyirəm ki, məktəblərimiz və universitetlərimiz koronavirusa görə martın əvvəlindən bağlanıb və tədris ilinin sonuna qədər onlar, birmənalı olaraq, açılmayacaq... Buna görə məsafədən təhsil imkanları həqiqətən çox vacibdir. Əgər bizdə bütün məktəblərimizin tam bağlantısı olan sistem olarsa, onda bu, çox böyük imkana çevriləcək. Siz dediyiniz kimi, bu halda Azərbaycan aparıcı ölkələrdən biri olacaq.

*Prezident İlham Əliyevin mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə bu şirkətin rəhbərləri arasında keçirilən videokonfransdakı çıxışından*

# "Virtual məktəb"in uğurlu nəticələri ISESCO-da

Son aylarda dünyanın müxtəlif ölkələrində ağır fəsadlara yol açmış koronavirus pandemiyası ümumtəhsil müəssisələri və universitetlərin bağlanmasına, bununla da milyonlarla şagird və tələbənin təhsildən kənarda qalmasına səbəb olub. Bu çətin durum milli təhsil sistemləri qarşısında tədrisin fasiləsizliyinin, təhsilalanların təhsil hüquqlarının təmin olunması sahəsində təxirəsalınmaz vəzifələr qoyub. Pandemiya ölkələri təhsil sistemlərinin texnoloji infrastrukturunun çevik modernləşməsinə və inkişafına yönəltmişdir. Nəticədə ayrı-ayrı ölkələr məsafədən tədris texnologiyalarından istifadə etmək məcburiyyətində qalmışdır. Ölkələr pandemiyanın yaratdığı çətinliklərin təhsil sahəsinə təsirini necə aradan qaldırır? Vəziyyətdən çıxış yolunu nədə görür və hansı texnologiyalardan istifadə edir? Bu sahədə işin təkmilləşdirilməsi üçün hansı təcrübələrdən istifadə edir? Bütün bu suallara mayın 14-da ISESCO-ya üzv dövlətlərin Təhsil nazirlərinin virtual videokonfransında cavab tapmaq olardı.

"Böhran və fövqəladə hallar qarşısında təhsil sistemləri (COVID-19)" devizi altında keçirilən konfransa ISESCO-nun Baş direktoru Salim bin Məhəmməd Al-Malik, Azərbaycan, Səudiyyə Ərəbistanı, Pakistan, Misir, Mərakeş və digər dövlətlərin Təhsil nazirləri, UNESCO-nun Baş katibinin təhsil məsələləri üzrə müavini Stefania Ciannini, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Təhsil və bacarıqlar idarəsinin direktoru Andreas Şlayxer də qatılıb. Videokonfransın əsas mövzusu COVID-19 pandemiyasının təhsil sahəsinə təsiri və təhsil sisteminin mövcud reallığa uyğunlaşdırılması olub.

Dünyanın 43 müsəlman ölkəsindən 38 Təhsil nazirinin, 5 təhsil naziri müavininin, 10-a yaxın beynəlxalq təşkilatın nümayəndələrinin qatıldığı konfransın birinci sessiyası təhsil prosesinin təhlükəsiz davamlılığının təmin edilməsi üçün "Təhsil sistemlərinin inkişafında süni intellektin rolu" mövzusuna həsr olunub. Bu mövzuda OECD-nin Təhsil və bacarıqlar idarəsinin direktoru Andreas Şlayxer çıxış edib. Konfransın ikinci sessiyasında bir neçə nazir öz ölkələrinin təcrübəsini və koronavirus böhranı zamanı qarşılaşdıqları problemləri diqqətə çatdırıblar. Sessiyada məktəblərin bağlanması ilə əlaqədar olaraq dərinləşən təhsildən kənarda qalma probleminin həlli üzrə təcrübə mübadiləsi aparılıb.

Üçüncü sessiyada əsas diqqət Dünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri nəzərə alınmaqla pandemiyanın uzun müddət davam edəcəyi təqdirdə məktəblərin fəaliyyətinin bərpasına hazırlıqla bağlı təcrid məhdudiyyətlərinin yumşaldılması, eləcə də beynəlxalq təşkilatlar tərəfindən verilmiş rəhbər çərçivə sənədləri əsasında məktəblərin yenidən daha təhlükəsiz açılmasına hazırlanmasına yönəldilib.

⇨Ardı səh.4

# İnklüziv təhsil bərabərhüquqlu və inklüziv cəmiyyətlərin təməlidir

Sağlamlıq imkanlarının məhdud olması və ya başqa səbəblərdən təhsildən kənarda qalan uşaqların ümumtəhsil məktəblərində təhsilə cəlb olunması son vaxtlar geniş vüsət alıb. İndi yalnız ölkəmizdə deyil, bütün dünyada çoxluq qəbul edir ki, fərqləndirici xüsusiyyətindən asılı olmayaraq bütün cəmiyyət üzvləri bir arada dinc yaşamalı, bir məktəbdə təhsil almalı, hətta bir sinifdə oxumalı, bir parta arxasında oturmalıdır. Buna baxmayaraq, müşahidələr göstərir ki, əlilliyi olan şəxslərə qarşı mövcud stereotiplərin aradan qaldırılması, onların da cəmiyyətin bərabərhüquqlu üzvü olmasının hamı tərəfindən qəbul olunması heç də asan olmayacaq. Məsələ bundadır ki, cəmiyyət inklüziv təhsillə nəzəri olaraq razılaşsa da, tətbiqə gələndə tərəddüdlər ortaya çıxır. Başqa sözlə, bunu qəbul etmək nəinki XX əsr, elə XXI əsr insanı üçün də asan olmayıb. Şəkinin Aşağı Güngüt kəndindən olan Ülkər Süleymanova Azərbaycan Dövlət İqtisad Universitetində Kompüter elmləri ixtisası üzrə magistr təhsili alır. Kənd mühitində böyüyən, orta və ali təhsilini rayonda alan, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının məzunu olan Ülkər kəndlə şəhərin münasibətini öz təcrübəsindən çıxış edərək belə fərqləndirir: "Məhdudiyyətli uşaqlar çoxdur və təəssüf ki, cəmiyyətdən öncə ailələri onlara görə utanır. 8 yaşımda bədbəxt hadisə yaşadım və o gündən bəri çətin bir dövrdən keçirəm. Ailə sarıdan şanslı olsam da, şəhərə gəldikdən sonra cəmiyyətlə münasibətdə problemlərim ortaya çıxdı. İstəyirəm hamı bilsin ki, hamımız bərabərik. Fərqliliklər insanları biri-birindən üstün, ya da aşağı etməməlidir. Fərqlərimiz, sadəcə insani keyfiyyətlərimiz, özümüzü necə formalaşdırmağımızla bağlı ortaya çıxa bilər".

Beləliklə, insanlar uzun müddət əlilliyi olanlara fərdi qaydada verilən təhsilin, yoxsa sağlamlıq imkanları məhdud uşaqlardan ibarət sinifdə aldıqları təhsilin, ya da inklüziv sinifdə keçilən dərsin daha effektli olduğu üzərində düşündü. Maraqlıdır ki, dünyanın bir çox ölkələrində artıq müəyyən qənaət hasil olsa da, Azərbaycanda bu istiqamətdə tərəddüd edənlər hələ də vardır. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin inklüziv təhsil mütəxəssisi, "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində inklüziv təhsil üzrə məsləhətçi Fərid Süleymanovun sözlərinə görə, həyata keçirdikləri təlimlərdə də bu, ən çox müzakirə olunan məsələlərdən biridir.

⇨Ardı səh.8




# Evdən çıxmadan dünya muzeylərinə ziyarət

## Məktəblilər üçün virtual muzey həftəsinə start verilib

Səh.8

# Həssas qruplardan olan tələbələr üçün yeni onlayn imkan

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi sistemi - *http://e-telebe.edu.az* portalı istifadəyə verilib.

Sözügedən qrupa daxil olan tələbələr elektron sistemdə qeydiyyatdan keçərək şəxsi kabinet yaratmalı, təhsili, ailə üzvləri haqqında və digər zəruri məlumatları əlavə etməlidirlər.

Məqsəd xüsusi karantin rejimində tələbələrin işinin asanlaşdırılması üçün onlara yeni imkan yaratmaqdır.

Qeyd edək ki, Nazirlər Kabinetinin "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərarı 20 mindən artıq tələbəni əhatə edir.

Qərarın icrası üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaiti ayrılıb.

Qərar yalnız ali təhsil müəssisələrində təhsil alanları deyil, orta ixtisas və peşə təhsili üzrə əyani təhsil alan tələbələri də əhatə edir. Təkrar ali və orta ixtisas təhsili alan tələbələrə isə şamil edilmir. Qaydalara əsasən, bütövlükdə həssas qrupdan olan tələbələr üçün tam olaraq illik təhsil haqqı xərci dövlət tərəfindən ödəniləcək.

# İstedadlar yetişdirən məkan

Dünya miqyasında korifey sənətkarlar kimi tanınan elm, mədəniyyət və incəsənət xadimlərinin, eləcə də yaradıcılıq potensialı olan, misilsiz uğurlara imza atan gənclərimizin tərcümeyi-hallarını öyrənəndə, onların hələ erkən yaşlarda olarkən təlim-tərbiyə müəssisələrində müəllimləri, tərbiyəçiləri tərəfindən dərnək və qruplarda, idman zallarında istedad və bacarıqları üzə çıxarılır və zaman-zaman inkişaf etdirilir. Oxuculara təqdim etmək istədiyim yaradıcılıq məkanında bu gün də gələcəyin tanınmışları ola biləcək istedadlı uşaq və yeniyetmələr tərbiyə olunmaqda və yetişməkdədir.

Belə ki, 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi 45 ildir ki, böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur. Mərkəzdə uşaqların dünyagörüşlərinin formalaşdırılması, istedad və qabiliyyətlərinin üzə çıxarılması və inkişaf etdirilməsi məqsədilə mütəmadi olaraq müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirilir. Onlar dünyanın müxtəlif ölkələrində keçirilən müsabiqə və sərgilərə, festivallara qatılır, böyük uğurlar qazanaraq qızıl, gümüş, bürünc medallar və diplomlar qazanırlar. Mərkəzin tədris işləri üzrə direktor müavini Kəmalə Əncümənurun verdiyi məlumatda ötən müddət ərzində görülən işlərdən, qazanılan uğurlardan söz açılır.

⇨Ardı səh.7



# Sizin kimi Prezidentimiz olduğuna görə çox şanslıyıq

# Təhsil işçiləri və şagirdlər Prezident İlham Əliyevə minnətdarlıq edirlər



*Çox hörmətli cənab Prezident.*

COVID-19 pandemiyası ilə əlaqədar Vətənimizin üzləşdiyi çətinliklər dövründə işlərinizin həddən artıq çox olmasına baxmayaraq, ölkəmizin ilk ali tibb təhsili, tibb elmi məbədi olan Azərbaycan Tibb Universitetinin 90 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzaladığınıza görə ATU-nun bütün əməkdaşları və tələbələri adından, eləcə də şəxsən öz adımdan Sizə dərin minnətdarlığımızı bildirirəm.

Böyük fəxarət hissi və möhkəm inamla deyə bilərik ki, Azərbaycan Dövlət Tibb İnstitutunun yarandığı ilk illərin çətinlikləri dövründə bir rektor kimi ona dayaq duran görkəmli dövlət və elm xadimi, professor Əziz Əliyev olub. O, Azərbaycan Dövlət Tibb İnstitutunun qısa müddətdə milli dəyərlər əsasında hərtərəfli inkişaf etdirərək, onu bütün göstəricilər üzrə SSRİ-nin ən qabaqcıl ali məktəbləri sırasına çıxara bilib.

Ulu öndər Heydər Əliyev və onun ömür-gün yoldaşı, dünya şöhrətli oftalmoloq Zərifə xanım Əliyeva ilə birlikdə Azərbaycan tibb elmi və tibb təhsilinin, bütövlükdə Azərbaycan səhiyyəsinin inkişafı naminə misilsiz xarüqələr yaradıblar. Azərbaycan Tibb Universitetinin əməkdaşları və tələbələri ümummilli lider Heydər Əliyevin diqqət və qayğısını Azərbaycanın müstəqilliyi dövründə də öz üzərində hiss ediblər. Məhz bu qayğının təcəssümü olaraq Heydər Əliyev iki dəfə - 1998-ci və 2000-ci illərdə Azərbaycan Tibb Universitetində olmuş, əməkdaşlar, tələbələr və ölkənin tibb ictimaiyyəti ilə görüş keçirmişdir. 2003-cü ildən indiyədək Azərbaycan Tibb Universitetinin inkişafında Sizin əvəzsiz xidmətiniz olmuşdur. Belə ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan Tibb Universitetində yaratdığı ilk tədris stomatoloji klinikasından sonra Siz Birinci vitse-prezident xanım Mehriban Əliyeva ilə birlikdə 2007-2013-cü illərdə Azərbaycan Tibb Universitetinin daha üç möhtəşəm tədris klinikasını ərsəyə gətirərək xalqımıza, səhiyyəmizə ərməğan etdiniz ki, bütün bunlar da ali tibb təhsili ocağımızın beynəlxalq əlaqələrini, müalicə-profilaktika, erkən diaqnostika, reabilitasiya imkanlarını ölçüyəgəlməz dərəcədə genişləndirdi, nüfuzunu artırdı.

Əziz Prezidentimiz, pandemiya dövründə Azərbaycan Tibb Universitetinin əməkdaşlarının və məzunlarının, bütün səhiyyə işçilərinin əməyinə verdiyiniz yüksək qiymət hər bir tibb işçisini yeni qələbələrə ruhlandıran stimula çevrilib.

Zati-aliləri, Azərbaycan Tibb Universitetinə göstərdiyiniz etimada görə bir daha Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya səmimi qəlbdən dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Hörmətlə,

**Gəray GƏRAYBƏYLİ,**
*professor, Azərbaycan Tibb Universitetinin rektoru*

---

*Hörmətli cənab Prezident.*

Sizi Gəncə şəhər 1 saylı orta məktəbin ingilis dili müəllimi olaraq salamlayır və Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Hazırda tətbiq edilən xüsusi karantin rejimi müddətində Sizin tövsiyələrinizə uyğun olaraq evdə qalmağa davam edirik. Koronavirusla əlaqədar məktəblərimiz müvəqqəti bağlandığı üçün dərsləri də onlayn formatda keçirik. Məqsədimiz isə şagirdlərimizin evdə qaldıqları müddətdə dərslərindən geri qalmamalarıdır.

Möhtərəm cənab Prezident, COVID-19 pandemiyasının dünyanın bir sıra ölkələrində bəşəriyyət üçün necə fəlakətli nəticələr törətdiyinin şahidiyik. Buna rəğmən, Sizin uzaqgörən qərarlarınızla vaxtında görülən qabaqlayıcı tədbirlər nəticəsində koronavirusun Azərbaycanda geniş yayılmasının qarşısı alınmaqdadır. Siz bu çətin günlərdə xalqımızın sağlamlığını qorumaqla bərabər, virusa yoluxmuş vətəndaşlarımızın müalicəsi və tez bir zamanda sağalması istiqamətində də çox böyük işlər görürsünüz. Gördüyünüz bu misilsiz işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Pandemiya dövründə yorulmaz fəaliyyətinizlə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Biz Azərbaycan kimi gözəl bir ölkədə yaşamağımızla fəxr edir və Sizin kimi Liderə sahib olduğumuz üçün özümüzü çox uğurlu vətəndaşlar hesab edirik.

Bəşəriyyət üçün çətin bir dövrdə bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə minnətdaram.

Dərin ehtiram hissi ilə,

**Günay ABBASOVA,**
*Gəncə şəhəri*

---

*Möhtərəm cənab Prezident.*

Koronavirus pandemiyasına qarşı apardığınız tədbirlərə görə Sizə çox təşəkkür edirəm. Sizin sayənizdə ölkəmiz hərtərəfli izolyasiya edildi və bunun nəticəsi olaraq virusun qarşısı demək olar ki, alınıb. Bundan başqa koronavirusa görə həssas ailələrdən olan tələbələrə, maddi imkanı aşağı olan insanlara yardım göstərdiyinizə və bunun kimi çoxsaylı digər işlərinizə görə çox təşəkkür edirəm. Sizin kimi Prezidentimiz olduğuna görə çox şanslıyıq. Bir daha minnətdarlığımı bildirirəm.

Hörmətlə,

**Nuray CƏFƏROVA,**
*Bakı şəhəri*

---

*Hörmətli cənab Prezident.*

Mən 6-cı sinifdə oxuyuram. Hər gün onlayn şəkildə dərslərimə davam edirəm.

Cənab Prezident, bütün dünyada tüğyan edən pandemiyaya baxmayaraq, Sizin uzaqgörən və düzgün qərarlarınız, verdiyiniz tapşırıqlarınız sayəsində ölkəmizdə bu xəstəlik geniş yayılmadı. Sizin sayənizdə ölkəmiz normal həyata qayıdır.

Cənab Prezident, gördüyünüz işlər biz məktəblilərə böyük dayaqdır və daha işıqlı gələcəyə ümid verir. Buna görə Sizə təşəkkürümü bildirirəm.

Hörmətlə,

**Murad İBADOV,**
*Bakı şəhəri, Xətai rayonu*

---

*Əziz və möhtərəm Prezident.*

Mən orta məktəb şagirdiyəm. Sizə məktub yazmaq üçün çox düşündüm. Gördüyünüz işləri sözlə ifadə etməkdə çətinlik çəksəm də, yenə də öz səmimi sözlərimi Sizə yazmaq qərarına gəldim.

Hazırda bütün dünya koronavirusla mübarizə aparır. Hətta ən böyük dövlətlər belə bu pandemiyaya qalib gələ bilmir. Azərbaycan da koronavirusa hələ ki, tam qalib gəlməsə belə, itkilərimizin az olması, xəstəliklə səmərəli mübarizə aparmağımız şəxsən məni sevindirir.

Sizə sonsuz minnətdarlığımı bildirirəm, əziz Prezidentim!

Hörmətlə,

**Ləman HƏŞİMLİ,**
*Cəbrayıl rayonu, şagird*

---

*Hörmətli cənab Prezident.*

Bütün dünyanın mübarizə apardığı koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması üçün birbaşa Sizin rəhbərliyinizlə həyata keçirilən mübarizə tədbirləri bir vətəndaş kimi məni qürurlandırır. Dünyanın ən inkişaf etmiş ölkələrinin belə qarşısında aciz qaldığı bu ümumbəşəri bəla Sizin qətiyyətli, uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə böyük itkilərə səbəb olmadı. Belə çətin günlərdə əhaliyə edilən yardımlar, güzəştlər Sizin xalqımıza olan diqqət və qayğınızın nəticəsidir.

Mən bir müəllim, bir ana kimi xoşbəxtəm ki, gələcəyimiz olan gənclərimiz, övladlarımız, ümumiyyətlə, Azərbaycan xalqı belə sabit və təhlükəsiz ölkədə rifah içərisində yaşayırlar. Əlbəttə, ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu müstəqil Azərbaycanımızın bu gün regionun ən güclü dövlətlərindən biri olması Sizin gərgin əməyinizin nəticəsidir. Hər zaman xalqımızın yanında olduğunuz üçün Sizə minnətdaram. Allah Sizi və ailənizi qorusun.

Dərin hörmət və ehtiramla,

**Çinarə SƏFƏROVA,**
*Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimi.*
*Gəncə şəhəri*

---

*Hörmətli cənab Prezident.*

Yürütdüyünüz siyasətə, xalqımıza göstərdiyiniz qayğıya görə Maştağa qəsəbəsinin şagirdləri adından Sizə təşəkkür edir və Sizi çox sevdiyimizi bildiririk.

Koronavirus epidemiyasının dünyanı lərzəyə saldığı bu dönəmdə Siz bizim yanımızda oldunuz. Əgər Siz vaxtında qabaqlayıcı tədbirlər görməsəydiniz, itkilərimiz daha çox ola bilərdi.

Pandemiyaya çevik reaksiya verdiyinizə, Azərbaycan xalqını qoruduğunuza görə Sizə minnətdarıq.

Hörmətlə,

**Xədicə ŞAHBAZLI,**
*şagird,*
**Nigar HÜSEYNOVA,**
*şagird*
*Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi*

---

*Əziz və hörmətli Prezidentimiz.*

Mən 71 yaşlı təqaüdçü müəllim, tələbə, əsgər nənəsi olaraq Sizə və Mehriban xanıma xalqımıza qayğı ilə yanaşdığınıza görə təşəkkür edirəm.

Dünyanı qəflətən zəbt edən koronavirus bəlasının yaratdığı çətin dövrdə Siz hamımıza hərtərəfli dayaq oldunuz, hər bir vətəndaşı ayrı-ayrılıqda diqqət və qayğı ilə əhatə etdiniz. Xalqına daim böyük qayğı göstərən, onun yolunda hər bir çətinliyə sinə gərən ulu öndər Heydər Əliyevin varisi, düşünürəm ki, belə də etməlidir.

Allahdan Sizə möhkəm cansağlığı arzu edirəm. Bu xeyirxah əməllərinizdə yolunuz daim açıq, işiniz avand olsun.

Hörmətlə,

**ElzaYUNUSOVA,**
*Kürdəmir rayonu*

---

*Hörmətli cənab Prezidentimiz.*

Mən Sizə çox minnətdaram. Ona görə ki, bütün dünyanın çətin vəziyyətdə olduğu bir vaxtda Siz xalqımızın yanında oldunuz. Biz magistrların müavinətlərini, müəllimlərin və digər dövlət işçilərinin maaşlarını verdiniz. Əhaliyə bu çətin zamanda böyük dayaq oldunuz. Hazırda korrupsiya ilə bağlı gördüyünüz işlər çox təqdirəlayiqdir. Siz bizim sağlamlığımızı bizdən daha çox qoruyursunuz. Bütün bunlara görə Sizə bir daha təşəkkür edirəm.

Hörmətlə,

**Gülər XANKİŞİZADƏ,**
*Sabirabad rayonu*

---

*Hörmətli cənab Prezident.*

Dünyanı bürümüş COVID-19 pandemiyası ilə əlaqədar gördüyünüz tədbirlər nəticəsində Azərbaycanda virusa yoluxanların sayı digər ölkələrlə müqayisədə xeyli az oldu. Xalqa xidmət etdiyinizi, dövləti və milləti sevdiyinizi, əsl vətənpərvər olduğunuzu insanlara göstərdiyiniz diqqət və qayğınızla bir daha sübuta yetirdiniz.

Məktəblərin bağlanması da biz şagirdlərin sağlamlığı üçün atılan addım idi. Lakin məktəblərin bağlanmasına baxmayaraq, biz "Virtual məktəb" layihəsi sayəsində dərslərimizə davam edirik. Bu da bizə göstərdiyiniz qayğının bir parçasıdır.

Pandemiya dövrü bir çox dövlətlər üçün çətin keçməsinə baxmayaraq, Azərbaycandakı vəziyyət bizi məmnun edir. Bütün bunlara görə Sizə minnətdarlığımı bildirirəm.

Hörmətlə,

**Qurban MUXTAROV,**
*Təbiət Elmləri Təmayüllü Gimnaziyanın şagirdi*
*Sumqayıt şəhəri*

---

*Əziz və hörmətli Prezidentimiz.*

Mənim 12 yaşım var. Bir məktəbli olaraq Sizinlə fəxr edirəm. Çox sevinirəm ki, ölkəmizə Sizin kimi uzaqgörən siyasi xadim rəhbərlik edir.

Bizim ailəmiz Sizi daim dəstəkləyib, bundan sonra da dəstəkləyəcəkdir. Dünyada yayılmış koronavirus pandemiyası ölkəmizdən də yan keçmədi. Lakin Sizin tapşırığınızla görülən işlər bu bəlanın qarşısını almağa kömək etdi.

Qaydalara tam riayət edir, bununla da Sizə kömək etməyə çalışıram. Bir məktəbli olaraq əminəm ki, Sizin müdrik rəhbərliyinizlə biz tezliklə bu bəladan xilas olacağıq. Əminəm ki, tezliklə məktəblər açılacaq və biz təhsilimizi davam etdirəcəyik.

Allah Sizi və xalqımızı qorusun.

Hörmətlə,

**Seyidzəhra İSMAYILOVA,**
*Siyəzən rayonu*

# Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazisində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması tədbirlərinin davam etdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təkliflərinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 365; 2012, № 12, maddə 1344; 2017, № 12 (II kitab), maddə 2532; 2018, № 3, maddə 607) ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 7.4-cü bəndin üçüncü və dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

“Ali təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

Bakalavriat səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunurlar. Təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) iştirak edə bilər. Ali təhsil müəssisəsinin Elmi şurası tərəfindən Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, bakalavriat səviyyəsində müəyyən ixtisaslar üzrə təhsilalanlara əlavə olaraq buraxılış işinin yerinə yetirilməsi tələbi qoyula bilər.

Magistratura səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş tələbələr yekun attestasiyaya buraxılırlar. Yekun attestasiya magistrlik dissertasiyasının müdafiəsindən və (və ya) ixtisas fənləri üzrə imtahanlardan ibarətdir. Magistrlik dissertasiyasının müdafiəsi ixtisaslaşdırılmış şuraların iclaslarında aparılır. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər ali təhsil müəssisəsinin Elmi şurası və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyənləşdirilir.

Bakalavriat və magistratura səviyyələrində imtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi, dövlət attestasiyasının keçirilməsi qaydaları ali təhsil müəssisələri və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilir.”;

1.2. 7.5-ci bənddən “, aralıq və dövlət buraxılış imtahanından müvəffəq qiymət almış” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 366; 2012, № 10, maddə 1003; 2013, № 10, maddə 1217; 2017, № 12 (II kitab), maddə 2533) ilə təsdiq edilmiş “Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7.3-cü bənddən “, aralıq və dövlət buraxılış imtahanından müvəffəq qiymət almış” sözləri çıxarılsın;

2.2. 7.5-ci bəndin üçüncü və dördüncü abzasları aşağıdakı redaksiyada verilsin:

“Orta ixtisas təhsili proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunurlar. Təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) iştirak edə bilər.

İmtahan sessiyalarının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi, dövlət attestasiyasının keçirilməsi qaydaları Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyənləşdirilir.”.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 467; 2014, № 4, maddə 450; 2016, № 4, maddə 820, № 6, maddə 1201, № 12, maddə 2239; 2017, № 2, maddə 307; 2018, № 11, maddə 2431; 2019, № 12, maddə 2051; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 mart tarixli 79 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın 2.7-ci və 4.3-cü bəndlərinə “Nazirliyi” sözündən sonra “ilə razılaşdırılmaqla, ali təhsil müəssisəsinin Elmi şurası və AMEA” sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 561; 2012, № 12, maddə 1345; 2014, № 4, maddə 451; 2016, № 12, maddə 2239; 2017, № 4, maddə 665, № 12 (II kitab), maddə 2534; 2018, № 11, maddə 2431; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 mart tarixli 80 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.6-cı bəndə “Nazirliyi” sözündən sonra “ilə razılaşdırılmaqla, ali təhsil müəssisəsinin Elmi şurası” sözləri əlavə edilsin;

4.2. 2.14-cü, 2.15-ci və 2.18-ci bəndlər ləğv edilsin;

4.3. 2.16-cı bənd aşağıdakı redaksiyada verilsin:

“2.16. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunurlar. Yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbələr üçün buraxılış yekun dövlət imtahanı təşkil edilir. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla, ali təhsil müəssisəsinin Elmi şurası tərəfindən müəyyən ixtisaslar üzrə təhsilalanlara əlavə olaraq buraxılış işinin yerinə yetirilməsi tələbi qoyula bilər.”.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1638; 2016, № 6, maddə 1202; 2017, № 6, maddə 1232; 2018, № 3, maddə 589; 2019, № 4, maddə 761) ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.2.14-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.14. Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin fəndən kreditləri qazanmış hesab olunur. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin fənn üzrə akademik borcu qalır. Akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə imtahan vermək (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) və ya fənni (fənləri) yenidən dinləmək üçün şərait yaradılır. Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə fənni (fənləri) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər. Bütün hallarda imtahan verən tələbənin ümumi qiymətləndirilməsi zamanı onun fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin (aparıldığı halda) nəticələri nəzərə alınır və qazandığı kreditlər tədris planı üzrə həmin fənni (fənləri) dinlədiyi semestrə aid olunur.”;

5.2. 3.2.23-cü yarımbəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Bu hədd ali təhsil müəssisəsinin Elmi şurası və AMEA tərəfindən dəyişdirilə bilər.”;

5.3. 3.2.24-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.24. Cari semestrdə akademik borcu qalan və növbəti semestr başlayanadək akademik borcunu ləğv edə bilməyən tələbə növbəti semestrdə təqaüddən məhrum edilir (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Əgər həmin tələbə növbəti semestrdə götürdüyü bütün fənlərdən kreditləri qazanarsa (ÜOMG nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə), o yenidən mövcud qanunvericiliyə əsasən təqaüd almaq hüququna malik olacaqdır.”;

5.4. aşağıdakı məzmunda 4.7-ci və 4.8-ci bəndlər əlavə edilsin:

“4.7. Ali təhsil müəssisəsi tərəfindən buraxılış işinin yerinə yetirilməsi tələbi qoyulmadıqda, tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəq qiymət almış tələbə təhsil müddətində əldə etdiyi nəticələrə (ÜOMG-yə) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunur.

4.8. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) uyğun olaraq yekun attestasiyanın qərarı ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) iştirak edə bilər.”.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1644; 2018, № 1, maddə 126; 2019, № 4, maddə 761) ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.2.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.15. Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin fəndən kreditləri qazanmış hesab olunur. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin fənn üzrə akademik borcu qalır. Akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə imtahan vermək (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla) və ya fənni (fənləri) yenidən dinləmək üçün şərait yaradılır. Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə fənni (fənləri) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər. Bütün hallarda imtahan verən tələbənin ümumi qiymətləndirilməsi zamanı onun fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin (aparıldığı halda) nəticələri nəzərə alınır və qazandığı kreditlər tədris planı üzrə həmin fənni (fənləri) dinlədiyi semestrə aid olunur.”;

6.2. 3.2.24-cü yarımbəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu hədd orta ixtisas təhsili müəssisəsinin Pedaqoji şurasının qərarı ilə dəyişdirilə bilər.”;

6.3. 3.2.25-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.2.25. Cari semestrdə akademik borcu qalan və növbəti semestr başlayanadək akademik borcunu ləğv edə bilməyən tələbə növbəti semestrdə təqaüddən məhrum edilir (xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələri istisna olmaqla). Əgər həmin tələbə növbəti semestrdə götürdüyü bütün fənlərdən kreditləri qazanarsa (ÜOMG nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə), o yenidən mövcud qanunvericiliyə əsasən təqaüd almaq hüququna malik olacaqdır.”;

6.4. aşağıdakı məzmunda 4.6-cı və 4.7-ci bəndlər əlavə edilsin:

“4.6. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəq qiymət almış tələbə təhsil müddətində əldə etdiyi nəticələrə (ÜOMG-yə) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunur.

4.7. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) uyğun olaraq yekun attestasiyanın qərarı ilə razılaşmayan tələbə ixtisas üzrə buraxılış yekun dövlət imtahanında (fənlərarası) iştirak edə bilər.”.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 380; 2017, № 4, maddə 672, № 5, maddə 1010, № 10, maddə 1918; 2018, № 11, maddə 2432, № 12 (II kitab), maddə 2741; 2019, № 4, maddələr 735, 762, № 8, maddə 1480; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 mart tarixli 78 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.5-ci bənd üzrə:

7.1.1. birinci cümləyə “siyahısı” sözündən sonra “semestr başlayanadək” sözləri əlavə edilsin;

7.1.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

“Akademik borcu yaranmış və akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək həmin fənni (fənləri) dinləmədən imtahan verib müvəffəq qiymət almış tələbə də növbəti semestrdə təqaüd almaq hüququ olan tələbələrin siyahısına daxil edilir.”;

7.2. 2.6-cı bənddən “semestr üzrə” və “imtahan sessiyasının nəticələrinə əsasən” sözləri çıxarılsın.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 498 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2217; 2018, № 4, maddə 814, № 12 (II kitab), maddə 2746; 2019, № 4, maddə 763, № 6, maddə 1141; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 fevral tarixli 45 nömrəli və 27 fevral tarixli 69 nömrəli qərarları) ilə təsdiq edilmiş “Ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasının aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.2. Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı tədris Azərbaycan, rus və gürcü dillərində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün -tədris dili, xarici dil və riyaziyyat fənlərindən, tədris ingilis, fransız və digər dillərdə aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün -xarici dil və riyaziyyat fənlərindən olmaqla, Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir. Buraxılış imtahanında şagirdlərə tədris dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 30 olmaqla, ümumilikdə 90 tapşırıq təqdim edilir. Buraxılış imtahanında şagirdlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahanın davametmə müddəti 3 saatdır. Buraxılış imtahanını yalnız xarici dil və riyaziyyat fənlərindən verən şagirdlər üçün imtahanın davametmə müddəti 2 saatdır.*”;

8.2. 2.4-cü bəndin dördüncü cümləsində “1 saat 30” sözləri “45” rəqəmi ilə əvəz edilsin;

8.3. 2.6-cı bəndin üçüncü cümləsi çıxarılsın;

8.4. aşağıdakı məzmunda “*Qeyd” əlavə edilsin:

“***Qeyd.** 2020-ci ildə ümumi orta təhsil səviyyəsi üzrə təhsilalanların yekun attestasiyası çərçivəsində keçirilən buraxılış imtahanları ikimərhələli olduğu zaman imtahanın birinci mərhələsində iştirak etmiş şagirdlər birmərhələli buraxılış imtahanını vermirlər və onların birinci mərhələdə əldə etdikləri nəticələr Mərkəz tərəfindən 300 ballıq şkalaya keçirilir.”.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 290; 2018, № 2, maddə 349, № 4, maddə 815, № 12 (II kitab), maddə 2747; 2019, № 3, maddə 517; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 fevral tarixli 46 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu Qaydaları”nın 3.3-cü bəndinin dördüncü cümləsində “1 saat 30” sözləri “45” rəqəmi ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 291; 2018, № 2, maddə 350, № 4, maddə 816, № 12 (II kitab), maddə 2748; 2019, № 3, maddə 517; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 fevral tarixli 47 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.2. Qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir. Qəbul imtahanında abituriyentlərə Azərbaycan dili və ya rus dili fənnindən 30, xarici dil fənnindən 30 və riyaziyyat fənnindən 30 olmaqla, ümumilikdə 90 tapşırıq təqdim edilir. Bu mərhələdə abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahanın davametmə müddəti 3 saatdır.”;

10.2. 3.3-cü bəndin dördüncü cümləsində “1 saat 30” sözləri “45” rəqəmi ilə əvəz edilsin;

10.3. 3.4-cü bəndin birinci cümləsində “Hər mərhələdə imtahanın” sözləri “Qəbul imtahanının” sözləri ilə əvəz edilsin;

10.4. 3.5-ci bənd ləğv edilsin;

10.5. 3.9-cu bəndin ikinci cümləsindən “birinci mərhələdə” sözləri çıxarılsın.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292, № 10, maddə 1905; 2018, № 2, maddə 351, № 4, maddə 817, № 11, maddə 2432, № 12 (II kitab), maddə 2749; 2019, № 3, maddə 517; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 fevral tarixli 32 nömrəli və 17 fevral tarixli 48 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3.2-ci bəndin dördüncü cümləsində “1 saat 30” sözləri “45” rəqəmi ilə əvəz edilsin;

11.2. 3.8-ci bəndin ikinci cümləsi çıxarılsın, üçüncü və dördüncü cümlələri aşağıdakı redaksiyada verilsin:

“Abituriyent I-IV ixtisas qruplarının yalnız biri üzrə qəbul imtahanında iştirak edə bilər. I-IV ixtisas qruplarından biri üzrə qəbul imtahanında iştirakından asılı olmayaraq, abituriyent V ixtisas qrupu üzrə də imtahanda iştirak edə bilər.”;

11.3. 5.1-ci bəndin ikinci cümləsi ləğv edilsin.

**12.** Bu Qərar 2020-ci il oktyabrın 1-dək qüvvədədir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 18 may 2020-ci il*

# "Virtual məktəb"in uğurlu nəticələri ISESCO-da



## Təhsil nazirlərinin virtual videokonfransında böhran və fövqəladə hallar dövründə təhsil sistemlərinin vəzifələri müzakirə olunub

- Son illər Azərbaycanın təhsil sistemində həyata keçirilmiş məqsədyönlü islahatlar sayəsində məktəblərin müasir İKT vasitələrindən istifadə imkanları yaxşılaşdırılmış, məktəb şəbəkəsi tam elektronlaşdırılmış, müəllim heyətinin, şagirdlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi təmin edilmişdir ki, bu faktorlar pandemiya dövründə məsafədən tədrisin çevik tətbiqinə imkan vermişdir.
- Konfrans zamanı sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan təxminən 22 min tələbənin təhsil haqqının Azərbaycan dövləti tərəfindən ödənilməsi xüsusi olaraq vurğulanıb.
- Konfrans iştirakçıları həmçinin təhsil hüququnun təmin edilməsi və insan ləyaqətinin, sosial ədalətin və təhsilalanlar arasında bərabərliyin qorunub saxlanmasını ehtiva edən ISESCO konsepsiyasına öz dəstəklərini təsdiq ediblər. İştirakçılar pandemiya şəraitində təhsilin davamlılığının təmin edilməsi üçün üzv dövlətlərin səylərini yüksək qiymətləndiriblər.
- Nazirlər təhsilin keyfiyyətini və ədalət, inkluzivlik və bərabərlik prinsiplərini təhdid edən COVID -19 pandemiyasına görə İslam dünyasındakı orta məktəblərdən şagirdlərin kənarda qalması problemini həll etmək üçün uğurlu praktiki təşəbbüslərlə çıxış ediblər.

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

Dördüncü sessiyada iştirakçılar böhranlara və fövqəladə vəziyyətlərə reaksiya vermək və pandemiyaya qarşı mübarizədə İslam dünyası ölkələrinə kömək etmək üçün ISESCO-nun yaratdığı "Əhatəli Humanitar Koalisiya"nı müzakirə ediblər. Konfransın gündəliyinə müvafiq olaraq dördüncü sessiyada çıxış edən Azərbaycan və Seneqalın Təhsil nazirləri koalisiya, onun məqsədləri və nailiyyətləri haqqında mühüm məlumatlar veriblər.

### Pandemiya dövründə məsafədən tədris çevik tətbiq olundu

Videokonfransda iştirak edən Təhsil naziri Ceyhun Bayramov çıxışında pandemiya dövründə ölkəmizdə təhsil hüququnun fasiləsiz təmin edilməsi məqsədilə atılmış addımlar haqqında görüş iştirakçılarına ətraflı məlumat verib. Bildirilib ki, son illər Azərbaycanın təhsil sistemində həyata keçirilmiş məqsədyönlü islahatlar sayəsində məktəblərin müasir İKT vasitələrindən istifadə imkanları yaxşılaşdırılmış, məktəb şəbəkəsi tam elektronlaşdırılmış, müəllim heyətinin, şagirdlərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi təmin edilmişdir ki, bu faktorlar pandemiya dövründə məsafədən tədrisin çevik tətbiqinə imkan vermişdir.

Nazir distant təhsilə keçidi təmin etmək üçün qısa müddət ərzində yaradılmış və ölkədə ən iri onlayn platforma olan "Virtual məktəb" layihəsinin uğurlu nəticələri haqqında bəhs edib, müəllimlərin bu platformanın bütün imkanlarından tam yararlanmaları üçün təlimlərə cəlb edildiyini bildirib.

Təhsil naziri qeyd edib ki, Nazirlik tərəfindən atılan digər addımlar çərçivəsində 11 mart tarixindən etibarən teledərslərə start verilib. "Ölkənin 2 televiziya kanalında həftədə 5 dəfə olmaqla bütün siniflər üçün 10 fənni əhatə edən dərslər yayımlanmaqdadır. Teledərslər sonradan Təhsil Nazirliyinin *video.edu.az* portalında sərbəst istifadə üçün yerləşdirilir", - deyə Ceyhun Bayramov bildirib.

Konfrans zamanı sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan təxminən 22 min tələbənin təhsil haqqının Azərbaycan dövləti tərəfindən ödənilməsi xüsusi olaraq vurğulanıb.

Ceyhun Bayramov Təhsil Nazirliyinin ISESCO ilə təhsil sahəsində əməkdaşlığa böyük önəm verdiyini qeyd edərək, Azərbaycan Respublikası tərəfindən İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün ümumilikdə 40 təhsil qrantının ayrıldığını görüş iştirakçılarına xatırladıb.

Videokonfransın nəticəsi olaraq ISESCO tərəfindən "Əhatəli Humanitar Koalisiya" təşəbbüsü irəli sürülüb və Azərbaycan tərəfi təşəbbüsə dəstəyini ifadə edib.

### "Biz böhranla mübarizədə təcrübə qazandıq"

Səudiyyə Ərəbistanı Krallığının təhsil naziri, konfransın sədri Həməd bin Məhəmməd əş-Şeyx iştirakçıları salamlayaraq ISESCO konfransının təşkilini yüksək qiymətləndirərək COVID -19 pandemiyası dövründə Təhsil nazirliklərinin üzərinə düşən məsuliyyətin iki dəfə artdığını təsdiqləyib *(www.icesco.org/en/?p=11219).*

Nazir çıxışında deyib ki, " biz bu sürprizin təsirindən çıxdıq və böhranla mübarizədə təcrübə qazandıq. Səudiyyə Ərəbistanı Krallığı uzun illər əvvəl uzaqdan təhsil xidmətləri göstərməyə başlayıb. Krallıq bu sistemi təkmilləşdirib və hazırda iEN təhsil portalından birbaşa dərslər 20 kanal vasitəsilə yayımlanır. Biz, həmçinin Səudiyyə universitetlərinin müxtəlif sosial şəbəkə platformalarında və kanallarında təhsil məzmunlarına çıxış imkanı əldə etmişik. Bundan başqa, bu sistemlər böhrandan sonra da məktəblərdən kənarda qalma ilə bağlı problemlərin həlli üçün fəaliyyət göstərməkdə davam edəcək".

Daha sonra İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd Əl-Osaymin rəhbərlik etdiyi təşkilat və onun müxtəlif qurumlarının koronavirusla mübarizə çərçivəsində çoxsaylı təşəbbüslərlə çıxış etdiyini vurğulayıb və əlavə edib ki, İƏT və onun orqanları ən çox ehtiyacı olan üzv dövlətlərə böyük diqqət yetirirlər. O, üzv dövlətləri COVID-19 şəraitində təhsil sahəsində uğurlu təcrübəni daha az inkişaf etmiş ölkələrə çatdırmağa çağırıb. Baş katib vurğulayıb ki, üzv dövlətlərin səyləri və təhsil sahəsində COVID-19-un həllində uğurlu təcrübə mübadiləsi şagirdlərə və onların insani və peşə gələcəyinə, deməli, üzv dövlətlərin gələcəyinə birbaşa təsir göstərir. Baş katib təhsil prosesinin fasiləsizliyini təmin etmək üçün müasir texnologiyaların və süni intellektin tətbiqi ilə mümkün, səmərəli və sürətli həllərin tapılmasında bir çox üzv dövlətlərin uğurlarına baxmayaraq, bir sıra ölkələrin zəif texniki və insan resurslarından və qeyri-sabit iqtisadi şəraitdən əziyyət çəkdiyini bildirib. Onun sözlərinə görə, bu cür vəziyyət mənfi nəticələrin artmasına gətirib çıxarır, bəzi uşaqlar və gənclər təhsil almaq imkanından məhrum olur, həmçinin, xüsusilə də ən az inkişaf etmiş ölkələrdə məktəbdən ayrılma göstəricilərinin artmasına yol açır.

Baş katib təhsil və süni intellekt sahəsində qabaqcıl təcrübəyə malik üzv dövlətləri təhsilin fasiləsizliyini təmin etmək üçün daha az uğurlu ölkələrə dəstək və məsləhətlər verməyə çağırıb. Bu ümumi təhlükənin qarşısını almaq üçün məsuliyyət, kollektiv və ciddi fəaliyyət tələb etdiyini vurğulayaraq, məktəbə təhlükəsiz qayıdışın təmin olunması məqsədilə birgə səylərin vacibliyini diqqətə çatdırıb.

İslam İnkişaf Bankı Qrupunun prezidenti Bandar əl-Həcər bildirib ki, təhsilə sərmayə qoyuluşu və peşə hazırlığı bankın 45 il bundan əvvəl yaradıldığı andan diqqətini cəlb edib. O, bankın ümumi dəyəri 5 milyard dollar olan 20 təhsil layihəsinin maliyyələşdirilməsində və təxminən 17000 təhsil qrantının verilməsində uğurlarını diqqətə çatdırıb.

YUNESKO-nun Baş direktorunun təhsil üzrə köməkçisi Stefania Giannini bildirib ki, dünyanın müxtəlif ölkələri arasında böyük texniki boşluğu üzə çıxaran bu böhrana uyğunlaşmağa təcili ehtiyac var və əlavə edib ki, bütün dünyada təxminən 100 milyon tələbə hazırda onlayn kommunikasiya texnologiyalarının olmaması səbəbindən təhsilini davam etdirmək imkanından məhrumdur ki, bu da məktəblərdə təhsilin əhəmiyyətini göstərir.

İranın təhsil naziri Möhsün Həcc-Mirzəei bildirib ki, ölkəsi müsəlman dövlətləri ilə texniki təcrübə mübadiləsi aparmağa və distant təhsil sahəsində bilikləri təqdim etməyə hazırdır. "Koronavirusun yayılmasından sonra İran təlimin dayandırılmasının qarşısını almaq cəhdi ilə ən əlverişli kütləvi informasiya vasitəsi kimi televiziyadan təhsil proqramlarınım canlı yayımına başladı", - deyə o bildirib. Nazir əlavə edib ki, "bu addıma paralel olaraq biz qarşılıqlı fəaliyyət platforması olan "Şad" adlı milli təhsil platformasının yaradılması üçün zəruri infrastruktur yaratmışıq və o, hazırda ölkəmizdə ən böyük təhsil proqramı olan pulsuz xidmət göstərir".

### "Təhsil sistemlərinin bərpası gələcək problemlərin həlli üçün zəruri qərardır"

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Salim Al-Malik infrastrukturun modernləşdirilməsi, tədris proqramlarının yenilənməsi və müasir texnologiyalardan istifadə etməklə gələcək problemləri həll etmək, böhranlara və fövqəladə hallara qarşı davamlı olmaq üçün təhsil sistemlərinin bərpa edilməsinə ehtiyac olduğunu bildirib. Salim Al-Malik konfransın təhsil sisteminin pandemiyadan ciddi zərər çəkdiyi, məktəblərin bağlandığı və təhsilin inkişafdan qaldığı bir vaxtda keçirildiyini diqqətə çatdırıb.

Baş direktor qeyd edib ki, konfrans təcrübə mübadiləsi aparmaq və pandemiyanın mənfi nəticələrinin məhdudlaşdırılmasının ən effektiv yollarını öyrənmək imkanıdır. "Üzv dövlətlər bəzi ölkələrin uğurlu təcrübəsinə, o cümlədən davamlı inkişaf məqsədlərinə nail olmaq məqsədilə təhsil prosesinin uğurlu davamlılığını təmin etmək üçün İKT və süni intellektə müraciətlərin qəbul edilməsinə, daha dəqiq desək, "inklüziv və ədalətli, keyfiyyətli təhsilin təmin edilməsinə və ömürboyu təlim imkanının yaradılmasına yönəlmiş 4 Davamlı İnkişaf Məqsədinə arxalana bilərlər", - deyə Baş direktor əlavə edib. Bundan başqa, Al-Maliki təsdiq edib ki, ISESCO öz təcrübəsini tam və qeyd-şərtsiz üzv dövlətlərlə bölüşməyə hazırdır ki, böhrandan öncəki səviyyədə 30% təşkil edən məktəblərdən kənarda qalma probleminin effektiv həlli yolları axtarılsın. "Bu göstərici tədris prosesinin pozulmasına görə təhsilin keyfiyyətinə təhlükə yaradacaq dərəcədə kəskin şəkildə artacaq və məsələ ağlabatan akademik yanaşma əsasında həll olunmalıdır", -deyə o vurğulayıb.

Baş direktor pandemiya dövründə məktəblərin açılmasının yaradacağı potensial çətinliklərdən qaçınmaq üçün qabaqlayıcı vizyonun vacibliyini vurğulayıb və əlavə edib ki, bu məsələ müvafiq tədbirlər və effektiv qərarlar vasitəsilə həll olunmalıdır. Bununla əlaqədar olaraq, Salim Al-Malik qeyd edib ki, ISESCO beynəlxalq təcrübəyə əsaslanaraq "Təhsil müəssisələrinin yenidən işə başlamasına hazırlığının artırılması üzrə rəhbərlik" hazırlayıb və sənəd təhsil nazirlərinə göndərilib.

Digər tərəfdən, Salim Al-Malik standartlaşdırma üzrə ciddi addımlar atmağa və İslam dünyasında təbiət elmləri və riyaziyyat üzrə tədris proqramlarına əlavə diqqət yetirməyə çağırıb, çünki riyaziyyat və təbiət elmləri dünya təhsil arenasında beynəlxalq qiymətləndirmə və müsabiqələr vasitəsilə təhsil sistemlərinin keyfiyyəti üçün əsas istiqamət kimi həlledici rol oynayır.

Çıxışının sonunda Baş direktor pandemiyaya qarşı mübarizə məqsədilə həyata keçirilən səylərə dəstək üzrə ISESCO-nun irəli sürdüyü bir sıra təşəbbüsləri sadalayıb. Onlardan virusa qarşı peyvəndin kəşfinə və ya müalicəsinə görə mükafatlandırmaq üçün"Koronavirusa qarşı mübarizə üçün ISESCO mükafatı"nın, "ISESCO Digital Home", "İstədiyimiz cəmiyyətlər", eləcə də pandemiyadan zərər çəkmiş üzv ölkələrə dəstək məqsədilə yaradılan "Əhatəli Humanitar Koalisiya" adlı böyük təşəbbüsləri sadalamaq olar. Bu baxımdan, Salim Al-Malik ölkələri və donorları bir çox dövlətlərin və aparıcı beynəlxalq təşkilatların dəstəklədiyi koalisiyaya qoşulmağa çağırıb.

## Virtual konfransın yekun bəyannaməsinin təfərrüatları

Təhsil nazirlərinin növbədənkənar virtual konfransı vahid bəyannamənin qəbul olunması ilə öz işini başa çatdırıb. ISESKO-nun Baş direktoru Salim Al-Malik tərəfindən oxunan Bəyənnaməyə əsasən işirakçılar 2030-cu ilə qədər BMT-nin IV Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) - "İnklüziv və ədalətli, keyfiyyətli təhsilin təmin edilməsi və hamı üçün bütün ömürboyu təhsil imkanlarının genişləndirilməsi"nə yönəlmiş hədəflərə nail olmaq istiqamətində fəaliyyət göstərmək öhdəliklərini təsdiqləyiblər.

Konfransın yekun iclasında İslam dünyasının Təhsil nazirləri, regional və beynəlxalq təşkilatların rəhbərləri İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səuda konfransda iştirakına, sədrliyinə və lazımi texniki dəstək vermək təşəbbüsünə görə təşəkkürlərini çatdırıblar. Onlar həmçinin ictimai təhsil müəssisələrinin bağlanması ilə nəticələnən pandemiyanın başlanması səbəbiylə bu çətin şəraitdə konfransın təşkilinə görə ISESCO-ya və onun Baş direktoruna təşəkkür ediblər.

Konfrans iştirakçıları həmçinin təhsil hüququnun təmin edilməsi və insan ləyaqətinin, sosial ədalətin və təhsilalanlar arasında bərabərliyin qorunub saxlanmasını ehtiva edən ISESCO konsepsiyasına öz dəstəklərini təsdiq ediblər. İştirakçılar pandemiya şəraitində təhsilin davamlılığının təmin edilməsi üçün üzv dövlətlərin səylərini yüksək qiymətləndiriblər. Onlar həmçinin ISESCO-nu üzv dövlətlər tərəfindən təhsil sektorunda pandemiyanın nəticələrinin, böhranların və fövqəladə halların qarşısının alınması üçün gələcək mexanizmlərin və tədbirlərin hərtərəfli araşdırılmasına dair tədqiqat hazırlamağa çağırıblar.

Bəyannamədə üzv dövlətlərin bir-birini dəstəkləməsi, məsləhətləşmələr aparması, qarşılıqlı əlaqələrin və ünsiyyətin fəallaşdırılması üçün mövcud təcrübədən, maliyyə və insani resurslardan istifadənin zəruriliyi vurğulanıb ki, hər bir uşaq xüsusilə böhran və fövqəladə hallar zamanı islam dünyasında təhsil hüququndan istifadə edə bilsin.

Bundan əlavə, iştirakçılar bu pandemiyanın yenidən baş qaldırması və ya məktəblərin müntəzəm açıldığı zaman yeni bir virus dalğasının ortaya çıxması təqdirdə təhsil müəssisələrinin təhlükəsizliyini təmin etmək məqsədilə müşahidə edilməli olan prosedurları və tədbirləri tənzimləmək üçün ISESCO tərəfindən hazırlanmış yeni rəhbərliyi dəstəkləyiblər. Həmçinin süni intellektin rolu və təhsil sistemlərinin inkişafında onun tətbiqləri və keyfiyyət, ədalət, bərabərlik və fövqəladə vəziyyətlərə və böhranlarda rolunun möhkəmləndirilməsinə dair məruzə razılıqla qarşılanıb. Bu baxımdan, videokonfrans iştirakçıları bu ağıllı təhsil tətbiqetmələrinin faydalarından maksimum yararlanmaq üçün zəruri maliyyə və texniki mənbələrdən istifadə etmək öhdəliklərini bir daha təsdiq ediblər.

İştirakçılar bütün kateqoriyalardan olan tələbələr üçün təhsil resurslarına və açıq mənbə məlumatlarına çıxış imkanı verməyə hazır olduqlarını bildiriblər. Onlar bundan sonra da dövlət rəqəmsal təhsil müəssisələrinin yaradılmasının milli qanunvericiliyin tələbləri ilə uyğunlaşdırılmasına, virtual təhsilin islam dünyasında sinif təhsil sisteminə əlavə olaraq daxil edilməsinə çalışacaqlar. Nazirlər təhsilin keyfiyyətini və ədalət, inkluzivlik və bərabərlik prinsiplərini təhdid edən COVID -19 pandemiyasına görə İslam dünyasındakı orta məktəblərdən şagirdlərin kənarda qalması problemini həll etmək üçün uğurlu praktiki təşəbbüslərlə çıxış ediblər. Bundan əlavə, təhsil sistemlərinin nailiyyətləri və onların texniki və kadr ehtiyacları ilə ayaqlaşmaq zərurəti, təhsil icmasının bütün elementləri üçün tədris təlimatlarının hazırlanması və məşğələlərin təşkili, təlim və reabilitasiya proqramları sahəsində siyasətin işlənib hazırlanması vasitəsilə potensialın artırılması üzərində işləmək ehtiyacı iştirakçılar tərəfindən təsdiqlənib.

Bəyannamədə həmçinin üzv dövlətlərə gender bərabərliyinə əsaslanan yanaşmalara uyğun olaraq strategiya, fəaliyyət planları və təhsillə bağlı büdcələrin hazırlanmasına daha çox dəstək nümayiş etdirmək çağırışı da səsləndirilib. Sənəd qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarını qətiyyətlə rədd edir və istisnasız olaraq bütün kateqoriyalara bərabər imkanlar yaradır və İslam dünyası ölkələrində riyaziyyat və təbiət elmlərini standartlaşdırır. Daha sonra iştirakçılar İSESCO-ya təhsil nazirlərinin qarşıdakı sessiyasında üzv dövlətlərdə səlahiyyətli orqanlara təqdim edilməsi üçün yuxarıda qeyd olunan beynəlxalq təşkilatlarla əməkdaşlıqla bağlı təkliflər irəli sürməyi təklif ediblər.

Konfrans iştirakçıları üzv dövlətlər üçün COVID-19-un nəticələrinin aradan qaldırılması üçün ISESCO tərəfindən yaradılmış "Hərtərəfli Humanitar Koalisiya"ya dəstək verdiklərini bir daha təsdiqləyibləр. Onlar ölkələri, hökumət və qeyri-hökumət təşkilatlarını, donorları və özəl sektoru koalisiyanın fəaliyyətini və təşəbbüslərini dəstəkləmək yolu ilə onun uğurlu fəaliyyətini təmin etməyə çağırıblar.

Həmçinin, mütamadi olaraq Təşkilatın büdcəsinə ödəmələrin davamlılığını və büdcədənkənar resursları təmin etməklə onun resurslarının sabitliyini təmin etmək öhdəliyi vurğulanıb. Bu, ISESCO-ya Baş Konfransın, İcra Şurasının və nazirlər səviyyəsində ixtisaslaşdırılmış konfransların Nizamnaməsinə və qətnamələrinə və qərarlarına uyğun olaraq üzərinə qoyulmuş funksiyalarını tam şəkildə yerinə yetirməyə imkan verə bilər.

Konfransın sonunda ISESCO-nun Baş direktoru Salaim Al-Malik çıxış edərək nazirlərə və iştirakçılara minnətdarlığını bildirib və təşkilatın təhsil hüququnun qorunması üçün daha çox səy göstərməyə hazır olduğunu təsdiq edib.

# Evdən çıxmadan dünya muzeylərinə ziyarət

## Məktəblilər üçün virtual muzey həftəsinə start verilib

Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı, Türk Mədəniyyəti və İrsi Beynəlxalq Fondunun birgə əməkdaşlığı ilə "Türk dünyası muzeylərinin həftəsi" proqramı üzrə məktəblilər üçün muzey həftəsinə start verilib.

Cari ilin 18-24 may tarixlərini əhatə edən "Türk dünyası muzeylərinin həftəsi" proqramının videokonfrans formatında keçirilən rəsmi açılışında Təhsil naziri Ceyhun Bayramov çıxış edərək bildirib ki, builki "Məktəblilər üçün muzey həftəsi" proqramının COVID-19 pandemiyası ilə əlaqədar onlayn platformada keçirilməsi nəzərdə tutulub. Həmçinin məktəblilərin evdən çıxmadan dünya muzeylərinə virtual ziyarətlərinin təşkili imkanları yaradılıb.

Nazir şagirdlərin bədii estetik zövqlərinin formalaşması baxımından muzeylərin böyük əhəmiyyət kəsb etdiyini, məktəblilərin muzeylərə ekskursiyalarının təşkilinin təkcə muzeylər həftəsində deyil, digər vaxtlarda da təmin olunmasının vacibliyini qeyd edib. Ceyhun Bayramov muzeylərə ekskursiyaların təşkilinin şagirdlərin tariximiz, adət-ənənələrimiz, tarixi şəxsiyyətlərimiz, tanınmış incəsənət xadimləri haqqında daha ətraflı məlumat almasında, onların dünyagörüşünün zənginləşməsində mühüm rolunu vurğulayıb.

Nazir çıxışının sonunda tədbirin təşkilinə göstərdiyi dəstəyə görə Türk Mədəniyyəti və İrsi Beynəlxalq Fonduna minnətdarlığını bildirib, proqramın işinə uğurlar arzu edib və məktəblilərə ekskursiyalarda fəal iştirak etməyi tövsiyə edib. Ceyhun Bayramov "Türk dünyası muzeylərinin həftəsi" proqramının ölkələrimizin dostluq əlaqələrinin möhkəmlənməsinə və qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə öz töhfəsini verəcəyinə də inamını ifadə edib.




Tədbirdə həmçinin Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov, Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, Özbəkistan Respublikasının Azərbaycandakı səfiri Baxrom Aşrafxanov, Macarıstan Respublikasının Azərbaycandakı səfiri Viktor Szederkenyin, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə, Azərbaycan Xalça Muzeyinin direktoru Şirin Məlikova salamlama nitqi ilə çıxış ediblər.

Sonra layihədə iştirak edən Qazaxıstan Milli Muzeyi, Qapar Aytiyev adına Qırğızıstan Milli İncəsənət Muzeyi, Türkiyə Respublikası Troya Muzeyi, Özbəkistan Dövlət Tarix Muzeyi, Macarıstanın Milli Muzeyinin direktorları çıxış edərək birgə əməkdaşlığın müsbət təsirlərini diqqətə çatdırıblar.

Daha sonra isə Azərbaycan Milli Xalça Muzeyinə virtual tur keçirilib.

COVID-19 pandemiyası ilə əlaqədar virtual təşkil olunan ekskursiyaların keçirilməsində əsas məqsəd məktəbliləri dünya muzeylərinin kolleksiya fondu ilə tanış etmək, şagirdlərə ölkələrin qədim tarixi, milli-mənəvi dəyərləri barədə daha ətraflı məlumat verməkdən ibarətdir.

Layihə çərçivəsində mayın 18-dən başlayaraq 24-dək hər gün Türk dövlətlərinin aparıcı muzeylərindən biri uşaq və gənclər üçün onlayn təqdimat, virtual ekskursiya təşkil edəcək. Belə ki, proqrama əsasən, mayın 18-də Azərbaycan Milli Xalça Muzeyi, 19-da Qazaxıstan Milli Muzeyi, 20-də Qapar Aytiyev adına Qırğızıstan Milli İncəsənət Muzeyi, 21-də Türkiyənin Troya Muzeyi, 22-də Özbəkistan Dövlət Tarix Muzeyi və 23-də Macarıstan Milli Muzeyi öz eksponatlarını onlayn formatda təqdim edəcəklər. Proqram ayın 24-də Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin gənc bələdçiləri tərəfindən muzeylərə onlayn ekskursiyaların təqdimatları ilə yekunlaşacaq. Virtual ekskursiyalara məktəblilərin və Bakı şəhəri ilə yanaşı respublikanın digər regionlarında fəaliyyət göstərən uşaq-gənclər inkişaf mərkəzlərinin dərnək üzvlərinin qoşulması nəzərdə tutulub.

Qeyd edək ki, 18 may tarixi dünyanın 150-dən çox ölkəsində Beynəlxalq Muzeylər Günü (International Museum Day) kimi qeyd olunur. Bununla əlaqədar 2015-ci ildən başlayaraq Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi və YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə təşəbbüsü ilə keçirilən "Məktəblilər üçün muzey həftəsi" layihəsinə start verilib və onun əsasında yeni interaktiv təhsil proqramı yaradılıb. Proqram çərçivəsində hər il mayın 12-dən 18-dək və ya mayın 18-dən 24-dək bir həftə ərzində Bakı şəhəri və regionlarda fəaliyyət göstərən muzeylərin əhatə etməklə "Muzey həftəsi" keçirilir.

Bu tədbirin uğurla həyata keçirilməsində Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu yaxından iştirak edib. Beş il ərzində maarifləndirici "Muzeylər həftəsi" proqramı çərçivəsində Bakı şəhəri və regionlarda fəaliyyət göstərən muzeylərə 75 mindən çox şagirdin ekskursiyası təşkil edilib.

# Təhsil naziri tələbələrlə videogörüş keçirib



## İki tələbədən birinin təhsil xərcləri dövlət hesabına ödənilir

Mayın 21-də Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) fəal üzvləri ilə videogörüş keçirib.

Ceyhun Bayramov tələbələrə pandemiya dövründə Azərbaycan hökuməti tərəfindən müvafiq istiqamətlər üzrə atılmış addımlar barədə ətraflı məlumat verib, ali və orta ixtisas təhsili müəssisələrində məsafədən tədrisin təşkili yönündə həyata keçirilən tədbirlər barədə danışıb. Bildirilib ki, təklif edilən onlayn platformalara 100 mindən artıq tələbə və professor-müəllim heyəti qoşulub, həmin platformalar üzərindən təlim-tədris prosesi uğurla təşkil edilib. Tələbələr iyun-iyul aylarında keçiriləcək imtahan sessiyasında iştirak edəcək, imtahanlara hansısa səbəbdən hazır olmayanlar üçün isə avqust-sentyabr aylarında icmal mühazirə və imtahanlar təşkil ediləcək.

Sosial baxımdan həssas əhali qrupuna aid ailələrin üzvləri olan tələbələrin təhsil haqlarının 2020-ci ildə dövlət hesabına ödənilməsi barədə qərara toxunan nazir deyib ki, Təhsil Nazirliyi tərəfindən bu məqsədlə yaradılmış e-telebe.edu.az elektron portalı üzərindən artıq 7 minə yaxın tələbə qeydiyyatdan keçərək sənədlərini təqdim edib. Eyni zamanda qeyd edilib ki, ölkə başçısı tərəfindən ötən il imzalanmış müvafiq fərman və sərəncamlara uyğun olaraq hazırda ölkəmizdə iki tələbədən birinin təhsil xərcləri dövlət hesabına ödənilir.

Nazir həmçinin 18 may 2020-ci il tarixində Nazirlər Kabineti tərəfindən qəbul edilmiş "Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə" qərarla bağlı da geniş məlumat verib.

Sonra Təhsil naziri tədrisin məsafədən təşkili, təhsil haqqının ödənilməsi, təqaüdlərin verilməsi ilə bağlı tələbələri maraqlandıran sualları cavablandırıb, təkliflərə münasibətini bildirib.

Qeyd edək ki, ATGTİ hazırda Azərbaycanın 101 ali və orta ixtisas təhsil müəssisəsində fəaliyyət göstərən Tələbə gənclər təşkilatını özündə birləşdirir. Üzvlər sırasına həm paytaxt, həm də regionların təhsil müəssisələri aiddir. ATGTİ-nin məqsədi təhsil müəssisələrində tələbələrin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial-iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir.

# Təhsil Nazirliyi yanında İctimai Şuranın onlayn iclası



## Təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsi iclasın mövzusu olub

Təhsil Nazirliyi yanında İctimai Şuranın onlayn iclası keçirilib. Şuranın məsul katibi İlqar Orucov iclasın hazırda məzmun ekspertiziyası ərəfəsində olan təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsi mövzusunda təşkil edildiyini diqqətə çatdırıb.

İclasda Təhsil nazirinin müşaviri Elnur Məmmədov, Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini Orxan Abbasov, Layihələrlə iş sektorunun müdiri Xamis Seyranov da iştirak ediblər. Bildirilib ki, təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq keçirilir və müsabiqəyə dair əsas tələblər həmin qərarla müəyyən edilir. Müsabiqənin keçirilməsində məqsəd təhsil müəssisələri və təhsilverənlər arasında sağlam rəqabət və innovativ fəaliyyəti, inkişafı stimullaşdırmaq, təhsilalanlar üçün daha əlverişli təhsil mühitinin yaradılmasına nail olmaqdan ibarətdir.

Qeyd edilib ki, təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsinə layihələrin qəbulu artıq başa çatıb. Müsabiqəyə 9 prioritet istiqamət üzrə layihə qəbulu *grants.edu.az* portalı vasitəsilə elektron şəkildə aparılıb. Müsabiqəyə ümumi təhsil müəssisələri və fərdi kateqoriyalar üzrə ümumilikdə 852 (ümumi təhsil müəssisələri kateqoriyası üzrə 204, fərdi kateqoriyalar üzrə isə 648) layihə təqdim edilib.

Mövzu ilə bağlı İctimai Şuranın sədri Şahlar Əsgərov, sədr müavini Nadir İsrafilov, şura üzvlərindən Etibar Əliyev, Asif Cahangirov, Ülviyyə Mikayılova, Elmina Kazımzadə rəy və təkliflərini bildiriblər. Müsabiqənin prioritet istiqamətlərini formalaşdırılan ümumi təhsilin hər səviyyəsi üzrə mövzuların nəzərdə tutulması, innovativ istiqamətlərə daha çox yer ayrılması, müsabiqə qalibləri və onların layihələrinin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, qazanılmış müsbət təcrübələrin digər ümumi təhsil müəssisələrində tətbiqi və digər tövsiyələr verilib. Eyni zamanda növbəti qrant müsabiqəsinin prioritet istiqamətlərinin müzakirəsinə Şura üzvlərinin də cəlb edilməsi təklif olunub.

# Peşə sahəsində onlayn karyera təlimləri

Azərbaycanda peşə təhsili müəssisələrinin tələbələri üçün karyera üzrə onlayn təlim sessiyaları təşkil edilib. Təlimlər Avropa İttifaqının maliyyə dəstəyi ilə, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Peşə Təhsili üzrə Dövlət Agentliyi və Azərbaycan Gənclərinin Nailiyyəti İctimai Birliyinin birgə əməkdaşlığı çərçivəsində baş tutub.

Təlim proqramı karyera planlaşdırılması, fərdi peşəkar inkişaf planının tərtibi, iş axtarma yolları və müsahibə mərhələsinə hazırlıq kimi müxtəlif mövzuları əhatə edib.

Azərbaycan Gənclərinin Nailiyyəti İctimai Birliyinin mütəxəssisi tərəfindən aparılan iki həftəlik təlim proqramı peşə təhsili tələbələrində gələcək işə dair daha aydın təsəvvür formalaşdırılmasına imkan yaradıb. Onlayn təlim sessiyalarında Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin 100-dən çox tələbəsi ilə yanaşı müəllimləri də iştirak edib. Karyera təlim proqramının davamlılığı nəzərdə tutulur.

Qeyd edək ki, proqram Avropa İttifaqının maliyyələşdirdiyi, BMTİP və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə icra etdiyi Azərbaycanın peşə təhsili sisteminin daha da gücləndirilməsi və müasirləşdirilməsi məqsədi ilə həyata keçirilən "Lənkəran İqtisadi Rayonunda Regional Model Peşə Təhsili Mərkəzinin Yaradılması" və "Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Təhsili Mərkəzinin Yaradılmasına dəstək" layihələri çərçivəsində hazırlanıb. Koronavirus pandemiyası zamanı adıçəkilən layihələr peşə təhsili tələbələrinin dərslərdən geri qalmaması və təhsildə fəal iştirakı məqsədilə tələbələr, onlayn kurslar və karyera təlim sessiyalarının hazırlanmasına yardım edib.



**Məcid İSMİXANOV - 80**

# Sadə müəllim, zəhmətkeş alim ömrü

**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru,*
*Təhsil Şurasının sədri*

## Ön söz əvəzi

Sadəliyi, səmimiliyi, təmkinliyi, nəcibliyi, ciddiliyi ilə həmişə fərqlənən Məcid İsmixanov həyatda sevimli müəllim, dərin alim, qayğıkeş valideyn, dəyərli ziyalı, etibarlı dost statusunu qazanmışdır. Nə qədər qəribə səslənsə də, belə insanlar haqqında danışmaq istəyəndə söz tapmaq çətinləşir.

## İlk tanışlıq

Məcid müəllimlə ilk görüşümü belə xatırlayıram. 1983-cü ildə mən doktorant idim və "Azərbaycan məktəbi" jurnalına çap olunması üçün məqalə vermişdim. Bir xeyli keçdikdən sonra məni redaksiyaya çağırdılar. Redaksiyaya getdim və mənim nə üçün çağırıldığımı soruşduqda, dedilər ki, "məqalən Məcid İsmixanovdadır, ona yaxınlaş". O vaxta qədər Məcid müəllim haqqında eşitsəm də şəxsən tanımırdım. Onu mənə göstərəndə çox ciddi görkəmli bir insanın yazı masası arxasında işlədiyini gördüm. Sözün düzü, onun bu ciddi görkəmi məni bir az təşvişə saldı. O vaxt bu jurnalda məqalə çap etdirmək çox çətin idi və mən məqaləmin geri qaytarılacağından narahat idim. Elə bu narahatçılıqla ona yaxınlaşıb özümü təqdim etdim, mənə baxdı, salamı aldı, sonra heç nə demədən stolun üstündəki kağızlar arasından nəyisə axtardı və... tapdı. Bu, mənim məqaləm idi. O vaxt məqalələr makinada yazılırdı. Stolun üstünə qoyanda məqalənin bir neçə yerdə qaralandığını və sual işarəsi qoyulduğunu gördüm. Ürəyimdən keçən birinci hiss bu oldu: "Deyəsən, məqaləm xoşa gəlməyib, ya da onu yenidən makinada çap etdirməliyəm". O vaxt makinada çap etdirmək o qədər də asan iş deyildi. Məcid müəllim isə sakitcə stolun üstündəki vərəqləri səliqəyə saldı, mənə oturmağa yer göstərdi, məqaləyə baxdı və bir xeyli sükutdan sonra, nəhayət, dilləndi: "Yaxşı məqalə yazmısınız, amma bir neçə sualım var" və suallarını bir-bir mənə verdi. Hər bir suala mən öz nöqteyi-nəzərimi izah etdikcə o, əvvəl məqalədə düzəlişlər edir, sonra yeni sual verirdi. Nəhayət, mənim üçün çox uzun və gərgin keçən bu dəqiqələr bitdi və o ayağa durdu, - "Sizinlə tanışlıqdan məmnun oldum, çox sağ olun, gedə bilərsiniz. Məqaləniz jurnalın növbəti nömrəsində çap olunacaq", - dedi. Həmin görüş öz səmimiliyi ilə mənim yaddaşıma əbədi həkk oldu.

Sonralar "Azərbaycan məktəbi" jurnalına çap olunmaq üçün bir necə məqalə də təqdim edəndə, yenə Məcid müəllimlə görüşdüm. Hər dəfə də eyni sadəliyi və səmimiyyəti ilə məni qarşılayır, hal-əhval tutur, suallar verir, məsləhətləşir və məqalədə düzəlişlər edir və sağollaşırdı. Sonralar öyrəndim ki, o bütün müəlliflərlə belə görüşür və hər bir düzəlişi edərkən, müəlliflə razılaşır. Bəlkə də elə buna görə də o hələ ilk görüşümüzdən mehriban, xeyirxah, səmimi, zəhmətkeş və dərin biliyə malik olan bir alim kimi qəlbimdə özünə yer tapdı.

İllər keçdikcə biz onunla daha tez-tez görüşməyə və hətta 1987-ci ildən BDU-da bir yerdə işləməyə başladıq və hər dəfə mən onu görəndə həmişə işlədiyinin şahidi olmuşam. İstər işdə, istər konfransda beş dəqiqə boş vaxtı olan kimi ya kitab oxuyar, ya da oxuduğu yazıda nəsə qeydlər aparardı. Vaxtının boş keçməsinə yol verməzdi.

## Müəllimlərin diqqətini cəlb edən tələbə

Məcid İsmixanov 1958-1962-ci illərdə APİ-nin (indiki ADPU) pedaqoji fakültəsində oxuduğu illərdə adlı təqaüdə layiq görülmüş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. Bu nailiyyətin əldə olunması, ilk növbədə, onun zəhmətkeşliyindən irəli gəlirdi.

Az-az tələbə ali məktəbdə təhsil alanda hamının yadında qalır. Məcid müəllim həmin tələbələrdən idi, hələ təhsil aldığı illərdə bütün müəllimlər onun gələcəkdə onlarla birlikdə işləyəcəyini düşünürdü, daha doğrusu, onun buna layiq olduğunu görürdülər. Elə də oldu; o, təyinat bölgüsündə İnstitutda assistent-müəllim kimi saxlandı, bir müddətdən sonra hərbi xidmətə getdi. Hərbi xidməti başa vurduqdan sonra o, ADPU-da müəllim vəzifəsini davan etdirməyə başladı. Bu, hamının ürəyindən idi, hamı onun bu uğurunu sevinclə qarşıladı.

## Dərsin səmərəli təşkili yollarının axtarışında

Müəllim kimi fəaliyyətə başlayanda onu dərsin səmərəli təşkili yolları maraqlandırırdı. Məktəb illəri yadına düşürdü; bəzi müəllimlərin dərsi maraqsız keçirdi və şagirdlər bu dərsdən az faydalanırdılar. O dərsin elə təşkil edilməsini istəyirdi ki,... dərs daha səmərəli, daha faydalı, daha maraqlı, daha məzmunlu...olsun, bunun üçün onun müəyyən fikirləri var idi... amma hələ bu fikirləri reallaşdırmaq, sübut etmək üçün vaxt və elmi cəsarət tələb olunurdu.

Nəhayət, o öz fikirlərini görkəmli alim, professor Mərdan Muradxanovla bölüşdü. Gənc müəllimin bu maraqlı fikirləri böyük ustadın xoşuna gəldi və Məcid İsmixanov dissertanturaya qəbul olanda professor M.Muradxanovun elmi rəhbərliyi ilə "Azkomplektli məktəblərdə dərsin xüsusiyyətləri və təkmilləşdirilməsi yolları" mövzusunda tədqiqat işinə başladı. Beləliklə, M.İsmixanov dərsin təkmilləşdirilməsi yollarını araşdırmaq imkanı əldə etdi. Yeniliyi etmək həmişə çətin olur; ona da çətin idi, bəzən məktəbdə eksperimental siniflərdə dərs deyən müəllimlərə öz yeniliyi haqqında məlumat verəndə, müəllimin öz köhnə metodikasından uzaqlaşmaq istəməməsi ilə, onların "axı, bu nəyə lazımdır?" sualı ilə rastlaşırdı, amma həvəsdən düşmürdü, qarşısına qoyduğu məqsədi reallaşdırmaq üçün inamla araşdırmalarını davam etdirirdi. Nəhayət, tədqiqatlarını yekunlaşdırdı və tədqiqatlar əsasında o, dərsdə şagirdlərin müstəqil işinin təşkilini dərsin səmərəlilik amili kimi irəli sürdü. Bunun üçün Məcid İsmixanov aşağıdakı şərtləri vacib hesab etdi:

1. Şagirdlərdə müstəqil iş bacarıqlarının aşılanması;
2. Təlim əməyi vərdişlərinin formalaşdırılması;
3. Müstəqil işə səmərəli pedaqoji rəhbərlik.

Müasir təhsil konsepsiyalarının təlim prosesində şagirdlərin müstəqil fəaliyyətinin təşkilini, bunun üçün onlarda bacarıq və səriştələrin aşılanmasını və bu işə düzgün pedaqoji rəhbərliyi tələb etdiyini nəzərə alsaq, Məcid müəllimin tədqiqatlarının nə qədər mühüm əhəmiyyət kəsb etdiyi məlum olar.

1968-ci ildə o, dissertasiya işini müdafiə edib, pedaqoji elmlər namizədi elmi dərəcəsinə layiq görüldü. Bu, o dövr idi ki, həmin dövrdə bütün SSRİ miqyasında dərsin təkmilləşdirilməsi yolları araşdırılırdı. Gənc alim həmin dövrdə problemin həllinə öz töhfəsini verə bildi.

## Şərəfli müəllim və alim ömrünün səhifələri

1982-ci ilə qədər Pedaqoji Universitetdə müəllim, baş müəllim, dosent vəzifələrində işləyən M.İsmixanov, 1987-ci ilə qədər "Azərbaycan məktəbi" jurnalında elmi redaktor vəzifəsində çalışdı. 1987-ci ildə o BDU-da işləməyə dəvət olundu. Bu, onun həyatının yeni mərhələsi idi. Məcid müəllim anadan müəllim kimi doğulmuşdu. Auditoriyada onun sanki "ikinci nəfəsi" açılır. Öyrətdikcə öyrətmək istəyir. Öyrətməkdən həzz alır. Səlis nitqi, analitik qabiliyyəti, hadisələri müqayisəli təhlil etməsi, dialoq və diskussiya ilə dərsi canlandırmaq bacarığı tələbələrin ona valehedici tərzdə qulaq asması ilə nəticələnir. Hələ olmayıb ki, Məcid müəllim auditoriyadan zəng vurulan anda çıxsın. Hər dəfə dərs bitəndən sonra tələbələrin ona suallar verdiyini və onun da aramla bu suallara cavab verməsini izləmək olar.

Adətən, müəllimlər dərsdən çıxanda yorğun görünürlər. Bu Məcid müəllimə xas deyil. O, auditoriyadan çıxanda sifətində məmnunluq hissi, gözlərində sevinc olur. Çünki o, insanlara nəsə öyrətməkdən həzz alır.

Müəllimlikdən xüsusi zövq alan Məcid müəllim həm də məhsuldar alim ömrü yaşamışdır. Bu günə qədər onun 20 kitabı (o cümlədən 12 dərslik və dərs vəsaiti), 10 tədris-metodik vəsaiti, 5 monoqrafiyası, 300-dən çox elmi məqaləsi işıq üzü görmüşdür.

Məcid müəllim 1988-ci ildə Təhsil Nazirliyinin ibtidai sinif dərsliklərinin müsabiqəsində iştirak etmiş, onun müəllifi olduğu "Əlifba"nın ("Oxu" ilə birlikdə) "Maarif" nəşriyyatında çapına qərar verilmişdir. 1994-cü ildən hal-hazıradək 25 il ərzində Ümumtəhsil məktəblərinin I sinifləri üçün "Azərbaycan dili (dövlət dili kimi)" fənni üzrə dərsliyin daimi müəlliflərindən biridir.

Ali məktəbin pedaqoji yönümlü ixtisasları üzrə qriflə nəşr olunmuş 2 dərsliyin və 8 dərs vəsaitinin həmmüəllifidir. 1 dərs vəsaiti (Higher Scholl Pedagogy, 2019) ingilis dilində nəşr olunmuşdur.

Onun tədqiqatları ilə xüsusən MDB məkanında yaxşı tanışdırlar. Məcid müəllim 20 Beynəlxalq elmi konfrans və simpoziumlarda məruzə və tezislərlə çıxış etmişdir. Onun diqqətçəkən elmi yeniliklərinin nəticəsində Məcid müəllim uzun illər Rusiya Pedaqoji Elmlər Akademiyasının Elmi-Problem Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. Respublika televiziyası və radiosu ilə "Ailə tərbiyəsi" üzrə silsilə verilişlər (50 veriliş) aparmışdır. Respublikada nəşr olunan müxtəlif jurnal və qəzetlərdə - "Azərbaycan məktəbi", "Azərbaycan qadını", "Bakı Universiteti Xəbərləri", "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri", "Elm və həyat", "Bakı", "Bakı fəhləsi" və b. aktual pedaqoji mövzularda məqalələrlə çıxış etmişdir.

Uzun müddət Təhsil Nazirliyinin pedaqogika və psixologiya üzrə Vahid Elmi-Metodik Şurasının elmi katibi, "Azərbaycan məktəbi" jurnalı redaksiya şurasının üzvü və ictimai əsaslarla elmi redaktoru, Respublika Jurnalistlər Birliyinin üzvü kimi fəaliyyət göstərmişdir.

Onun elmi-pedaqoji fəaliyyəti universitet, nazirlik və dövlət səviyyəsində qiymətləndirilmişdir. "Qabaqcıl təhsil işçisi" adına, BDU-nun 100 illiyi ilə bağlı Azərbaycan Respublikasının yubiley medalına, müxtəlif səviyyəli Fəxri fərmanlara layiq görülmüşdür.

Bu gün Məcid müəllim Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının professoru kimi fəaliyyət göstərir. Öz fəaliyyəti ilə həmişə, hər yerdə nümunəvi olan bu insan gənclik enerjisi ilə yenə də dərs deyir, yenə də tədqiqat aparır, yenə də insanlara kömək edir. Belə insanları görəndə həmişə düşünürsən: - Nə yaxşı ki, bu cür insanlar var. Məhz Məcid müəllim kimi nümunəvi insanlar Vətənə, xalqa, cəmiyyətə təmənnasız xidmət edir.

## Cavan qalmağın sirləri

Məcid müəllimin 80 yaşı tamam olur. Sözün düzü, görkəmindən bu, o qədər də hiss olunmur. Bəlkə ona görə ki, o həmişə işləyib - zəhmət onu cavan saxlayıb; bəlkə heç kimə pislik etməyib, əksinə həmişə hamıya yaxşılıq edib - xislət onu cavan saxlayıb; bəlkə insanlara yaxşılığı insanlığı sevdiyi üçün eləyib - sevgi onu cavan saxlayıb; bəlkə biliyindən həmişə hamıya pay verib - dualar onu cavan saxlayıb; bəlkə hamıya hörmət və ehtiramla yanaşıb - xeyirxahlıq və mədəniyyət onu cavan saxlayıb... Belə insanlara el içində "Allah adamı" deyirlər.

## Epiloq əvəzi

Müdriklik dövrünü yaşayan Məcid müəllim yenə öz ideyalarına, adət-ənənələrinə, düşüncələrinə uyğun yaşayır. Yenə qapını açıb auditoriyaya daxil olur, yenə kafedrada oturub işləyir, yenə magistrlara, doktorantlara məsləhət verir, yenə konfranslarda məruzə ilə çıxış edir, yenə məqalə və kitab yazır. Bütün bunları o, vəzifə borcu kimi edir, amma, bəlkə də bilmir ki kafedrada müəllimlər, auditoriyada tələbələr, magistr və doktorantlar, konfrans iştirakçıları, oxucular onunla görüşdən faydalandıqları üçün həmişə onu gözləyirlər.

Bu yubiley günündə hamı Məcid müəllimin sevincinə qoşulur, onu təbrik edir, ona cansağlığı, uzun ömür, yeni yaradıcılıq nailiyyətləri, sevincli və xoşbəxt günlər, nəvələrin xeyir işini və s. arzu edirlər. Biz də bu arzulara qoşularaq, Məcid müəllimi təbrik edirik.



**Akif ABBASOV - 70**

# Professor Akif Abbasova açıq məktub

**Ənvər ABBASOV,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

Hörmətli Akif müəllim!

Siz - pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü Akif Nurağa oğli Abbasov Azərbaycanda pedaqoji fikrin inkişafında böyük xidmətləri olan bir alim kimi tanınırsınız. Bu yüksək zirvələri fəth etmək üçün çox zəhmətlərə qatlaşmısınız, elmin çətin yollarında addım-addım irəliləmisiniz. 70 illik bir alim ömrünün möhtəşəm salnaməsini yaratmısınız. Bu xoş gündə sizi salamlayır və təbrik edirəm!

## Təhsil illəri

Siz 1950-ci il mayın 28-də respublikamızın günü-gündən gözəlləşən Şirvan şəhərində anadan olmusunuz. İlk təhsilinizi də elə bu şəhərdə almısınız. Hələ orta məktəbdə oxuduğunuz dövrdə yazmağa-yaratmağa maraq göstərmisiniz. Qələminizdən süzülüb gələn ilk yazılarınızı şagird olarkən "İşıq" adlı şəhər qəzetində dərc etdirmisiniz. Dil öyrənmək marağı sizi M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutuna (indiki Azərbaycan Dillər Universitetinə) gətirib. Həmin institutun ingilis və Azərbaycan dilləri fakültəsində təhsil almısınız. Təyinatla Sabirabad rayonunun kəndlərində işləmisiniz. 1975-ci ildən taleyinizi Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (indiki Azərbaycan Respublikasının Təhsil İnstitutu) ilə bağlamısınız. Kiçik elmi işçilikdən elmi katib vəzifəsinə qədər yüksəlmisiniz. Bu gün də fəaliyyətinizi uğurla davam etdirirsiniz.

## Pedaqoji aləmin sehrində

Biz o vaxt ilk dəfə görüşəndə 1977-ci ilin yayı idi. İndi az qala yarım əsrə bərabər bir dövr arxada qalıb. Hələ də müəllimlik ömrünün əsrarəngizliyi ilə bağlı elədiyiniz söhbətlər unudulmayıb. Dərs dediyiniz illərin təkrarsız anlarını indi də xatırlayırsınız. Uşaqların danışıqlarını, verdiyi sualları yada salırsınız. Siz həmişə deyirdiniz: biz yaxşı ki, məktəb auditoriyalarında olduq. Pedaqoji aləmin sehrinə düşdük, pedaqoji düşüncələrimiz də ordan qaynaqlandı. Bizi təhsil elmi ilə məşğul olmağa sövq etdi.

## Elmi-pedaqoji yaradıcılığın harmoniyası

İndi həyat öz axarında gedir. "İşıq" adlı şəhər qəzetinin səhifələrində dərc olunan məqalələrinizdən başlayan fəaliyyətiniz böyük bir yaradıcılıq ümmanına çevrilib. Burada elmiliklə bədiilik əriş-arğac kimi bir-birini tamamlayır. Artıq 25-dən çox proqram və dərsliklərin, 40-dan artıq kitab və kitabçanın, 200-dən artıq elmi məqalənin, çoxsaylı konfrans materiallarının müəllifisiniz.

Siz pedaqogika sahəsində elmi dərəcə almaq üçün namizədlik, doktorluq dissertasiyaları müdafiə etmisiniz. Azərbaycanda pedaqogika elminin inkişafına, xüsusilə tərbiyə nəzəriyyəsinin təkmilləşməsinə təkan verən əsərlər yazmısınız. Respublikamızda ailə və hüquq tərbiyəsi ilə bağlı sistemli və ardıcıl araşdırmaları məhz siz aparmısınız. "Şagirdlərin hüquq tərbiyəsi" (1983), "Şagirdlərin hüquq tərbiyəsində məktəb, ailə və ictimaiyyətin əlbir işinin təlim prosesində nəzərə alınması" (1984), "Ailədə uşaqların hüquq tərbiyəsinin yolları"(1985) və s. kitabları çap etdirmisiniz. 80-ci illərdə ailə tərbiyəsi ilə bağlı məsələlərin ümumi təhsilin məzmununa gətirilməsinə ilk təşəbbüs edən də siz olmusunuz. Azərbaycanın görkəmli psixoloqu professor Ə.Əlizadə ilə birlikdə orta məktəblər üçün ailə tərbiyəsi ilə bağlı proqram, eləcə də dərslik və dərs vəsaitləri ("Ailə", IX siniflər üçün dərslik (1986), "Ailə həyatının etika və psixologiyası". Müəllim üçün metodik vəsait (1988), "Ailə həyatının etika və psixologiyası" kursu üzrə tapşırıqlar sistemi (1988), "Ailə həyatının etika və psixologiyası" kursunun tədrisinin ümumi məsələləri (1988)) yazmısınız. Hətta bu qəbildən olan və oxucular tərəfindən böyük maraqla qarşılanan "Az söylə, söz söylə" (Şərqin şifahi və yazılı sənət abidələrində tərbiyəvi fikirlər) (1992), "Qız gəlin köçür" (yeniyetmə və gənclərin ailə həyatına hazırlanması) (1992) adlı kütləvi xarakter daşıyan pedaqoji əsərlər də yazıb nəşr etdirmisiniz. Neçə onilliklər keçməsinə baxmayaraq, həmin məsələlər bu gün də öz aktuallığını saxlamaqdadır.

Siz öz pedaqoji araşdırmalarınızda həm də təhsil quruculuğu məsələlərini tədqiqat obyektinə çevirmisiniz. Təhsilin pedaqoji-psixoloji problemlərinə, təhsilin modernləşdirilməsinin aktual məsələlərinə, pedaqoji internaturaya əsərlər həsr etmisiniz. Həmçinin ilk dəfə olaraq "Azərbaycanca-rusca pedaqoji-psixoloji terminlər lüğəti" (2019) hazırlayıb pedaqoji ictimaiyyətin istifadəsinə vermisiniz.

Sizin yaradıcılığınızda həm də təhsilin məzmunu üzrə gördüyünüz işlər də diqqəti cəlb edir. Bu gün təhsil sahəsinə bələd olan hər kəs bilir ki, orta ixtisas məktəbləri üçün "Pedaqogika" kursunun yeni məzmununun yaradılması sizin adınızla bağlıdır. İndi orta ixtisas məktəblərində istifadə olunan "Pedaqogika", "Milli əxlaq və ailə etikası" dərslikləri sizə məxsusdur.

Bu gün inklüziv təhsil, islahatlar müstəvisində prioritet bir məsələ kimi gündəmdə dayanır. Təhsilin humanistlik prinsipi əsasında qurulması öz növbəsində inklüzivliyin nəzərə alınmasını tələb edir. Siz də bu məsələni islahat dövründə diqqət mərkəzində saxlamısınız. Fiziki cəhətdən məhdudiyyəti olan uşaqlar üçün dərsliklərin hazırlanmasına qoşulmusunuz. Zəif eşidən uşaqlar üçün 2008-2009-cu illərdə "Oxu" (II sinif), "Oxu" (III sinif), "Oxu" (IV sinif), "Oxu" (V sinif) dərsliklərini yazmısınız.

## Bədii yaradıcılıq ömrün poetikasıdır

Bildiyim qədər sizin 60-cı illərdən gündəmə gələn ümumi yaradıcılığınızın bir hissəsini də tərcüməçilik fəaliyyəti təşkil edir. Bu fəaliyyət özünü sistemli və ardıcıl olaraq 80-ci illərdə göstərməyə başlayır. Həmin dövrdə sizin tərcümə etdiyiniz M.Baycıyevin "Duel", Z.Çernişevanin "Buzda ehtiyatlı ol", Y.Obukovun "Nənə gələndə", Y.Ziskindin "Uğurlu skamya" və b. əsərlər respublika radiosunda səsləndirilir. Eyni zamanda Azərbaycan dilinə çevirdiyiniz Georgi Xuqayevin "Andro və Sandro" pyesinin 1987-ci ildə məşhur rejissor-aktyor Həsən Əbluçun rejissorluğu ilə hazırlanmış radio tamaşası verilir.

Bədii yaradıcılıq ömrün poetikasıdır. O birdən-birə yaranmır. İstedadlı insanların yaradıcılıq bətnində olur. Tədricən inkişaf edərək öz məcrasına düşür. Sizdə də bədii yaradıcılığın potensial imkanları əvvəldən olub. Tərcüməçilik fəaliyyətinizdə də özünü göstərib. Sonradan sizin müxtəlif nəsr və dram əsərlərinizin nümunəsində tamamilə meydana çıxıb. İndi oxucular sizi ayrı-ayrı illərdə yazılmış roman, povest, hekayə və dram əsərlərinizi əhatə edən "Ləléşin ayaqqabısı" (1988), "Qaş düzəltdiyi yerdə" (1999), "Xəyanət", "Dədəmə oxşayırsan" (2004), "Bir qıçlı öz atasıdır" (2010), "Aldanma sözlərə" (2004), "Samsundan başlanan yol" (2011), "Acı xatirələr" (2015), "Sultan II Murad" (2016), "Fateh Sultan Məhəmməd" (2020) və s. adda 40-dan çox bədii kitabın müəllifi kimi tanıyır.

Sizin bədii əsərləriniz bir neçə xüsusiyyətinə görə fərqlənir və oxucular tərəfindən sevilir. Onlardan birincisi, bu əsərlərdə güclü yumor hissinin olmasıdır. Xüsusilə hekayə və lətifələrinizdə bu, daha çox hiss olunur. Maraqlı cəhət ondadır ki, ümumiləşdirilərək əsərlərə gətirilən bu yumoristik hadisələr tamamilə real həyat hadisələrinə əsaslanır. Təbiilik baxımından oxucuya müsbət təsir göstərir və onu tamamilə inandırır.

İkinci cəhət ciddilikdir. Xüsusilə roman müəllifi üçün hadisələrə obyektiv yanaşmaq, onu real səhnələrdə ifadə edə bilmək, dövrü, zamanı, epoxanı səciyyələndirən obrazlar yaratmaq vacib hesab edilir. Sizin əsərləriniz bu baxımdan da maraq doğurur. Əsasən də tarixi romanlarınızdakı obrazlar daha çox diqqəti cəlb edir. Türkün qəhrəmanlıq tarixi ilə bağlı yaratdığınız bədii salnamələri həyəcansız oxumaq mümkün olmur.

## Alimlik təkcə tədqiqatçılıq deyil

Alimlik təkcə tədqiqatçılıq deyil, həm də böyük təşkilatçılıq, idarəçilik mədəniyyəti tələb edir. Bu gün, doğrudan da, gənclərin elmimizin nüfuzlu nümayəndələrinin dəstəyinə çox böyük ehtiyacı vardır. Siz öz fəaliyyətinizdə həmişə bu platformada dayanmısınız. İlk növbədə, elmi kadrlarımızın hazırlanmasında layiqincə iştirak etmisiniz. Elə onun nəticəsidir ki, bu vaxta qədər sizin rəhbərliyiniz və elmi məsləhətçiliyinizlə 35 nəfər elmlər doktoru və fəlsəfə doktoru yetişib. Həmçinin 11 elmlər doktoruna, 32 fəlsəfə doktoruna müdafiə zamanı rəsmi opponentlik etmisiniz.

Siz eyni zamanda bir sıra pedaqoji mətbuat orqanlarının fəaliyyətində iştirak etmisiniz. Belə ki, Ukrayna Milli Müdafiə Universitetinin orqanı olan "Viiskova osvita", Azərbaycanda nəşr olunan "Mütərcim" ədəbi-bədii tərcümə jurnallarının, "Humanitar fənlərin öyrənilməsinin aktual problemləri", "Pedaqogika", Naxçıvan Müəllimlər İnstitutunun "Elm xəbərləri"nin, "Azərbaycanda xarici dillər" jurnalının redaksiya heyətinin üzvü, Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Elmi əsərlər"inin baş redaktorusunuz.

Siz həmçinin bu gün Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü kimi fəaliyyət göstərirsiniz. "Qızıl qələm" mükafatı laureatısınız. Dövlətimiz tərəfindən "Əməkdar müəllim" fəxri adı, "Tərəqqi" medalı ilə təltif olunmusunuz. Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl maarif işçisi" döş nişanı və Fəxri fərmana layiq görülmüsünüz.

Hörmətli Akif müəllim!

Sizi - ölkəmizin tanınmış təhsilşünas alimini anadan olmağınızın 70 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm! Sizə cansağlığı, gümrahlıq və yeni yaradıcılıq uğurları arzulayıram!



⇦ Əvvəli səh.1

# İstedadlar yetişdirən məkan

## 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi hədəfini reallığa çevirir

Sifai SƏFƏROVA

Direkror müavini bildirib ki, ilin müxtəlif aylarında mərkəzin dərnək üzvləri həm mərkəzdaxili, həm də rayon, şəhər, respublika və beynəlxalq səviyyəli 122 tədbirdə iştirak ediblər.

Mərkəzin daxilində 40 tədbir həyata keçirilib. Məlum olduğu kimi, ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu il respublikamızda dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar "Nəsimi ili" elan edilib. Mərkəzin həm Nizami, həm də Nəsimi rayonunun bazalarında məktəblilər arasında şairin yubileyi ilə bağlı "Həqq mənəm, həqq məndədir, həqq söylərəm" adlı bədii qiraət müsabiqəsi, "Günəşə bənzər şair" adlı ədəbi-musiqili gecə, İmadəddin Nəsiminin heykəli qarşısında "Nəqşi-cahan" adlı xalça festivalı və şahmat turniri keçirilib.



### "Nağıldan nağıla"

Bundan əlavə, mərkəzin "Çiçəyim" uşaq teatr studiyasının 22 yaşı tamam olması münasibətilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında keçirilən dərnəyin "Nağıldan nağıla" adlı tədbirində uşaqlar Azərbaycan və dünya uşaq nağıllarından parçalar, rəqslər, mahnılar, pantomim kompozisiyalar və geyim kolleksiyaları ilə maraqlı çıxışlar təqdim ediblər. Samirə Musaimin rəhbərlik etdiyi "Milli rəqs" dərnəyinin S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında keçirilən "Bizim rəqs dünyamız" adlı konsertində müxtəlif qrupların ifasında milli, müasir rəqslər, cizgi qəhrəmanlarının rəqsləri, süjetli rəqslər və dünya xalqlarının rəqsləri nümayiş olunub.

### "İdman, sağlamlıq, dostluq, birlik"

Təhsil Nazirliyi, Milli Olimpiya Komitəsi və Mərkəzin birgə təşkilatçılığı ilə Bakı şəhərinin məktəbliləri arasında ötən ilin yayında keçirilən "İdman, sağlamlıq, dostluq, birlik" adlı rəsm müsabiqəsi də Avropa Gənclərinin Olimpiya Festivalına həsr edilib. R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Bizim rəqs aləmimiz" adlı konsertdə isə mərkəzin 4 müəllimi - Məryəm Quliyeva, Fərid Əliyev, Samirə Musaimin və Orxan Səfərlinin rəhbərlik etdikləri rəqs dərnəklərinin hazırladığı müxtəlif süjetli rəqslər maraqla qarşılanıb. "Milli rəqs" dərnəyinin Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Dostluq çələngi" adlı hesabat konsertində Lalə müəllimin qrupları da rəngarəng rəqs nömrələri nümayiş etdiriblər.

### "Danışan gəlincik"

Mərkəzin müəllimi Xanım İsmayılovanın rəhbərlik etdiyi "Gənc aktyorlar" dərnəyinin üzvləri Azərbaycan uşaq ədəbiyyatının banilərindən olan A.Şaiqin uşaqlar üçün yazdığı "Danışan gəlincik" əsərini tamaşaya qoyublar. Mərkəzin "Dekorativ rəsm" dərnəyinin "Tullantıdan sənətə" adlı ekoloji mövzuda sərgisi təşkil olunub. Aytən Bəylərzadənin yetirmələrinin 50-yə yaxın işi sərgidə nümayiş etdirilib. Həmçinin, tədbirdə uşaqların tullantılardan hazırladıqları geyimlərdən ibarət moda kolleksiyası da "Çiçəyim" uşaq teatrının uşaqları tərəfindən nümayiş olunub. Mərkəzin təşəbbüsü ilə Uşaq Bərpa Mərkəzində "Əlini mənə ver, dostum" adlı layihə də həyata keçirilib. "Azəri inciləri" mahnı və rəqs kollektivi, "Çiçəyim" uşaq teatrının istedadlı aktyorları öz mahnı və rəqsləri, maraqlı səhnəcikləri ilə Uşaq Bərpa Mərkəzində müalicə olunan uşaqları sevindiriblər.

### Müəllimlərin ustad dərsləri

"Buta" dizayn studiyasının rəhbəri Könül Orucova, "Palitra" rəsm studiyasının rəhbəri Nərmin Abdullayeva, "Gənc dizayner" dərnəyinin rəhbəri Rəna Kərimova həm müəllimlər, həm də uşaqlar üçün rəsm və əl işləri, rəqs dərnəyinin rəhbəri Samirə Musaim rəqs, Təranə Hacıyeva isə kompüter üzrə bölgələrdə "ustad dərsləri" keçiblər.

### Mərkəzin cütlüyü I yerə layiq görülüb

Məryəm Quliyevanın rəhbərlik etdiyi "Bal rəqsləri" dərnəyinin "Aypara Dans Sport Club"un təşkil etdiyi "Gözəllik və zəriflik" müsabiqəsində mərkəzin 2 cütlüyü Raul Əliyev və Darya Kşnyakina, Vasiliy Lebedev və Sofiya Şevçenko I yerə layiq görülüb.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında 21 May - Ümumdünya Mədəni Müxtəliflik Günü münasibəti ilə "Nağılların rəng dünyası" adlı tədbirdə "Çiçəyim" uşaq teatrının gənc aktyorları nağıl qəhrəmanlarının obrazlarını məharətlə canlandırıblar. "Azəri inciləri" rəqs kollektivinin uşaqları dünya xalqlarının rəqslərini nümayiş etdiriblər. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı Heydər Əliyev Fondunun dəstəyi ilə Heydər Əliyev Mərkəzinin parkında keçirilən Uşaq Festivalında mərkəzin "Robot texnologiyaları" və "K-First" dərnəyinin interaktiv əyləncəli proqramları iştirakçıların diqqətini cəlb edib. Quba rayonunda keçirilən "Alovlu Qafqaz" adlı Uşaq və Gənclərin III Folklor Rəqs və Yaradıcılıq Festivalında mərkəzin "Azəri inciləri" rəqs kollektivinin çıxışı tamaşaçılarda xoş ovqat yaradıb. Fövqəladə Hallar Nazirliyi və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən "Fövqəladə hallar uşaqların gözü ilə" IX respublika uşaq yaradıcılıq müsabiqəsində rəsm və əl işləri dərnəklərinin üzvləri uğurla iştirak ediblər. Belə ki, əl işləri üzrə Könül müəllimin yetirmələri Ülvi Əsədli və Ənvər Əhmədzadə I, rəsm nomimasiyası üzrə Nərmin Abdullayevanın yetirmələri Ayaz Nəcəfli II, Fuad Anzurov III yerlərə layiq görülüblər. Mərkəz hər il olduğu kimi, 21 ölkənin beynəlxalq tədbirlərində festival və bayramlarda, rəsm müsabiqələrində uğurlar qazanıb.

Mərkəz "Dostluğun sehri" adlı beynəlxalq rəsm müsabiqəsini təşkil edib. 2019-cu ilin fevral ayında III "Dostluğun sehri" rəsm müsabiqəsinə yekun vurulub. "Mənim arzularım" mövzusunda keçirilən müsabiqəyə isə dünyanın 22 ölkəsindən 222 müəssisənin 6-15 yaşında olan uşaqları qatılıb, 2000-dən çox rəsm işi bu müsabiqəyə təqdim olunub.

Peşəkar rəssam və mütəxəssislərdən təşkil olunmuş münsiflər heyəti tərəfindən 657 rəsm işi seçilib, bunlardan 187 iş 3 yaş kateqoriyası üzrə qaliblər sırasına daxil olub. Şri Lankalı 6 yaşlı qız isə müsabiqənin ən yüksək mükafatına - "Qran-pri" mükafatına layiq görülüb. "Testene Art Baku" III Beynəlxalq İncəsənət festivalı müsabiqəsində mərkəzin bal rəqsləri qrupunun üzvləri müsabiqədə birinci olublar. Türkiyədə keçirilən 23 Nisan Beynəlxalq Uşaq Festivalında isə mərkəzin "Çiçəyim" uşaq teatrının üzvləri və rəqs kollektivi uğurla çıxış edərək ödül, diplom və hədiyyələr qazanıblar.

### Rəqs qrupu beynəlxalq festivalda

Sevindirici haldır ki, Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən "Şattuk" adlı Gənc istedadların XI Beynəlxalq Festivalında da mərkəzin rəqs qrupu iştirak edib. Mərkəzin direktoru Lalə Qəti festivalda münsiflər heyətinin fəxri üzvü seçilib. "Azəri inciləri" rəqs qrupu festivalda I yerə layiq görülüb, həm kollektiv, həm də qrupun rəhbəri Samirə Musaim xüsusi diplomla mükafatlandırılıblar. "Gənc səyahətçilər" dərnəyinin 19 üzvü İsveçrənin Kradenas vilayətində keçirilən Skaut düşərgəsində olub.

### Beynəlxalq müsabiqələrdən Vətənə qələbə ilə

Mərkəzin istedadlı uşaqları Minsk şəhərində keçirilən "Sərhədsiz yaradıcılıq" V Beynəlxalq festival-müsabiqəsində iştirak ediblər. "Xoreoqrafiya" nominasiyası üzrə Samirə Musaimin hazırladığı "Mənim Azərbaycanım" adlı rəqsi I yerə layiq görülüb. "Vokal" nominasiyası üzrə Gülnarə Qurbanovanın yetirməsi Əli Zeynallı isə II yeri tutub. Mərkəz II beynəlxalq festivala qatılıb. Moskvada keçirilən "İstoki" IX Beynəlxalq festival-müsabiqədə 3 gənc vokalçı Murad, Musa, Anastasiya və Darya Kşnyakinalar iştirak edib. Festivalın diplom və medallarını qazanıblar. Gülnarə Qurbanovanın yetirməsi 7 yaşlı gənc vokalçımız Murad, Musa I dərəcəli diplomant adına layiq görülüb. Kşnyakina bacıları Bolqarıstanda, Murad isə Qırğızıstanda keçiriləcək vokal müsabiqəsinə dəvət alıblar. Murad Fransadan gələn münsiflər heyətinin üzvü tərəfindən xüsusi diploma layiq görülüb. Haaqa şəhərində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Niderland Krallığındakı Səfirliyinin dəstəyi ilə "Bir olaq, birlik olaq" adlı layihədə "Azəri inciləri" rəqs qrupu iştirak edərək Azərbaycan mədəniyyətini və incəsənətini nümayiş etdiriblər.

### Gənc rəssamlar 7 ölkədə

2019-cu ildə mərkəzin gənc rəssamları 11 ölkədə keçirilən müsabiqə, baxış və sərgilərə qatılaraq uğura sahib olublar. Belə ki, 7 ölkədə - Misir, Rusiya (Moskva şəhəri və Mordoviya Respublikası), Yaponiya, Polşa, Çexiya, Bolqarıstan və Rumıniyada keçirilən rəsm müsabiqələrində rəsm dərnəyinin üzvləri istedad və bacarıqlarını nümayiş etdirərək 4 qızıl, 6 gümüş medal, 51 diplom və 17 sertifikat qazanıblar. Mərkəz dəfələrlə beynəlxalq müsabiqələrdə fəal iştirak etdiyinə görə xüsusi diplomlara layiq görülüb.

Əlbəttə, bütün bu uğurların qazanılmasında mərkəzdə - təlim-tərbiyə ocağında yaradılan işgüzar mühit, uşaq və yeniyetmələrə, müəllimlərə və tərbiyəçilərə aşılanan diqqət və məhəbbət dayanır.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6306, **Sifariş** 1339

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Ağsu şəhər** 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Ağayev Amil Valeh oğluna verilmiş AN-154572 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universitetindən** 1996-cı ildə məzun olmuş Ağa Həsən Firuz oğluna 2014-cü ildə verilmiş BB-I-023723 nömrəli dublikat diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 107 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyev Vüsal Akif oğluna verilmiş B-377814 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika Olimpiya İdman Liseyini** 2013-cü ildə bitirmiş Bağırov Kamran Valeh oğluna verilmiş A-210858 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Qayabaşı kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Hacıyev Əmir İlqar oğluna verilmiş B-733823 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2019-cu ildə Rüstəmov Ruslan Nadir oğluna verilmiş C-028232 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 283 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əmrahova Şəfəq Əhməd-Şükür qızına verilmiş A-303588 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**"Zəngi Lisey"ini** 2010-cu ildə bitirmiş Məhərova Mahinur İbrahim qızına verilmiş B-691270 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 153 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Həsənova Şərəf Həbib qızına verilmiş B-369398 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Texniki Kolleci** tərəfindən 2015-ci ildə Həsənov Fərman Sabir oğluna verilmiş AA-055678 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Poylu kənd tam orta məktəbini 2002-ci ildə bitirmiş Mustafayev Elmin Arzuman oğluna verilmiş A-643940 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 3 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əlizadə Kamil Əli oğluna verilmiş A-139444 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yeyinti Sənayesi Texnikumu** tərəfindən 1992-ci ildə Əhmədov Nəcib Qağamkişi oğluna verilmiş HT-I-565006 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2018-ci ildə Məcidov Anar Arif oğluna verilmiş C-015245 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əlili Əli Habil oğluna verilmiş E-019983 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Məmmədli Nadir İlqar oğluna verilmiş A-557138 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hacıyev İsmayıl Ağasən oğluna verilmiş A-381372 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 1 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Həsənov Fəqani Ziyəddin oğluna verilmiş A-208134 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** I-Nügədi kənd 1 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Abdulrəhmanova Elnurə Qalib qızına verilmiş A-488834 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 35 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Ağammədov Murad İlham oğluna verilmiş AN-361695 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Rüstəmova Türkan İlqar qızına verilmiş 104658 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 11 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Həsənzadə Fərid Xəqani oğluna verilmiş A-323219 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 2 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Bağırov Rəşad Şahin oğluna verilmiş A-228476 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2014-cü ildə A-338128 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Məlikməmmədova Sürəyya Baxış qızına verilmiş E-144687 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.K.Krupskaya adına Bakı Mədəni-Maarif Məktəbi** tərəfindən 1988-ci ildə Mantaşova Şəhla Şirin qızına verilmiş MT-I-274038 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Yeyinti Sənayesi Texnikumu** tərəfindən 2001-ci ildə Hüseynov Rəşad Zeynal oğluna verilmiş AB-II-065181 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, BSU-nun Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti ingilis filologiyası kafedrasının baş müəllimi Natavan Babayevaya anası

**ROZA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# ADPU-da Magistrantların III Respublika elmi konfransı - videokonfrans

14-15 may 2020-ci il tarixlərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində videokonfrans formatında "Yeni texnologiyalar və tədris prosesinin idarə olunması" mövzusunda Magistrantların III Respublika elmi konfransı keçirilib.

Qeyd edək ki, konfrans Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsis edilmiş "Elm günü"nə həsr olunub. Konfransı plenar iclasda giriş sözü ilə ADPU-nun rektoru, Təşkilat Komitəsinin sədri professor Cəfər Cəfərov açaraq, konfransın əhəmiyyəti, son zamanlar universitetin əldə etdiyi uğurlar, o cümlədən ABŞ-ın Corc Vaşinqton Universiteti ilə magistr hazırlığı sahəsində cari ildə imzalanmış beynəlxalq müqavilə barədə məlumat verib. Rektor konfrans iştirakçılarına müvəffəqiyyətlər arzulayıb və konfransın yüksək səviyyədə təşkilinə görə Təşkilat Komitəsinə təşəkkürünü bildirib.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, Təşkilat Komitəsinin sədr müavini, professor Asəf Zamanov plenar iclasda məruzə ilə çıxış edərək universitetin elmi uğurları, o cümlədən beynəlxalq və respublika səviyyəli elmi konfransları, dövri-elmi jurnalları, riyaziyyat, fizika, kimya, biologiya, informatika və digər elm sahələri üzrə ali təhsil ocağında hər il keçirilən olimpiada və müsabiqələr barədə məlumat verib. Artıq üçüncü il keçirilən magistrantların respublika elmi konfransının onların elmi-tədqiqat fəaliyyətinə, həmçinin dissertasiya işlərinin səviyyəsinə müsbət təsirini qeyd edib. Universitet Elmi Şurasının nəzdində yaradılmış magistr dissertasiya işləri üzrə Ekspert Komissiyasının uğurlu fəaliyyəti, Polşanın müvafiq şirkəti ilə imzalanmış müqavilə əsasında universitetdə tətbiq edilən Antiplagiat proqramının müsbət nəticələri xüsusilə vurğulanıb. Qlobal pandemiya şəraitində videokonfrans formatında keçirilən respublika konfransının həm magistrantlar, həm də professor-müəllim heyəti üçün yaxşı təcrübə olacağı qeyd edilib. Plenar iclasda professor Fərrux Rüstəmov, professor İsa İsmayılov, professor Əbülfət Pələngov, professor Müseyib İlyasov və professor Mübariz Əmirov çıxış edib, belə konfransların magistrantların elmi-tədqiqat sahəsində formalaşdırılmasında əhəmiyyətini vurğulayaraq, konfransın səmərəli təşkilinə görə universitet rəhbərliyinin fəaliyyətini yüksək qiymətləndiriblər. ADPU-nun magistrantı Aygün Şərifova "Ümumi təhsil müəssisəsi rəhbərinin peşə səlahiyyətləri" və BDU-nun magistrantı Ədilə Məmmədova "Abşeron yarımadasının hava çirkləndiricilərdən təmizlənməsində bitkilərin rolu" mövzularında məruzələrlə çıxış ediblər.

Konfrans iki gün ərzində "İnnovasiyalar və təhsilin keyfiyyəti", "Tədrisin müasir məsələləri", "Təhsilin təşkili və idarə edilməsi" və "Təhsildə sosial-psixoloji xidmət" elmi bölmələrində işini davam etdirib. Konfransın proqramında nəzərdə tutulmuş məruzələrdən 250-yə qədəri müzakirə olunaraq müsbət qiymətləndirilib. Mayın 15-də keçirilən konfransın yekun iclasında bölmə rəhbərləri professor Fərrux Rüstəmov, professor İsa İsmayılov, professor İramin İsayev, dosent Yaqut Rzayeva müvafiq bölmələr üzrə hesabatları təqdim edərək videokonfransın uğurlu nəticələrinə görə universitet rəhbərliyinə minnətdarlıq bildiriblər. Professor Asəf Zamanov konfransın işini yekunlaşdıraraq, onun materiallarının yaxın günlər ərzində toplu şəkildə çap etdirilib iştirakçılara, həmçinin müvafiq strukturlara çatdırılacağını bildirib. Sonda konfrans iştirakçılarına fəallıqlarına görə təşəkkür edib.

# BMU Elmi Şurasının növbəti onlayn iclası keçirilib

Bakı Mühəndislik Universiteti (BMU) Elmi Şurasının növbəti onlayn iclası keçirilib.



İclasda BMU-nun rektoru, professor Havar Məmmədov pandemiya dövründə universitetdə dərslərin məsafədən tədrisi istiqamətində görülən işləri diqqətə çatdırıb. Tələbələrin böyük əksəriyyətinin bu dərslərdə iştirak etdiyini bildirən rektor yaz imtahan sessiyasının təşkili məsələlərinə toxunub. Rektor Havar Məmmədov Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə" verdiyi qərarı yüksək qiymətləndirib.

Elmi Şuranın iclasında tədrisin vəziyyəti, yaz imtahan sessiyasının təşkili və bu istiqamətdə gündəmdə olan vacib məsələlər ətraflı təhlil olunub. Çıxışlarda elektron idarəetmə imkanları yüksək səviyyədə olan BMU-nun mövcud infrastrukturunun hazırkı duruma adekvat olaraq imtahanların keçirilməsinə imkan verdiyi vurğulanıb.

İclasda Elmi Şura üzvlərinin, tədrislə bağlı müvafiq struktur rəhbərlərinin gündəlikdə duran məsələlərlə bağlı fikirləri dinlənilib.

Toplantıda, həmçinin universitetin beynəlxalq əməkdaşlıq məsələlərinə də toxunulub. Yeni tədris ilindən BMU ilə Cənubi Koreyanın İnha Universiteti arasında əməkdaşlığa uyğun olaraq ikili diplom proqramının icrasına başlanılacağı vurğulanıb. Eyni zamanda, iclasda tələbələrdə mühəndis yaradıcılığı, eləcə də innovativ yanaşmanı formalaşdırmaq məqsədilə yaxın zamanlarda "Samsung Electronics Engineering Academy"nin açılması ilə bağlı müvafiq qərar qəbul olunub.

Sonda müzakirə olunan məsələlərlə əlaqədar işlərin qısa müddətdə icrası üçün müvafiq struktur rəhbərlərinə tapşırıqlar verilib.

# İnklüziv təhsil bərabərhüquqlu və inklüziv cəmiyyətlərin təməlidir

## Sağlamlıq imkanı məhdud uşaqların təhsil aldığı siniflərdə müasir tədris metodları ilə dərs deyən və uğurlu nəticələr əldə edən müəllimlər çoxdur



⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Qəribəsi isə odur ki, o, cavabın təhsilin məqsədindən asılı olaraq dəyişdiyini iddia edir: "Biz bu məsələyə bir neçə fərqli mövqedən cavab axtara bilərik. Məsələ burasındadır ki, təhsilin məqsədi əgər elm verməkdirsə, bir, şəxsiyyət yetişdirməkdirsə, digər mövqe üstünlük təşkil edir. Hamı yaxşı bilir ki, uşaq cəmiyyətdə formalaşır. Biz niyə valideynləri uşaqlarını 3 yaşından bağçaya qoymağa təşviq edirik? Təbii ki, erkən yaşdan cəmiyyətə adaptasiya olunsun deyə. Birmənalıdır ki, insan sosial məxluqdur və cəmiyyətdən kənarda yetişən insan tapmaq mümkün deyil. Hər birimiz fərd kimi, şəxsiyyət kimi cəmiyyətdə formalaşırıq. Bu nöqteyi-nəzərdən yanaşanda aydın görünür ki, uşaq sinifdə daha çox öyrənir".

### Biliyi bacarığa çevirməyəndə əhəmiyyətini itirir

Beləliklə, fərqləndirici xüsusiyyətindən asılı olmayaraq hamı bir sinifdə təhsil almağa başlayır. Bu təhsilin onlara nə verdiyinə, nə öyrətdiyinə diqqət edək: "Xüsusən müasir təlim yanaşmaları, kurikulum daha çox interaktiv təlim üsuluna əhəmiyyət verir. Burada müəllimin fəaliyyəti arxa plana keçir. Şagirdlər qarşılıqlı münasibət, müzakirə, layihə işləməklə bir-birindən öyrənir və bir-birinə öyrədirlər. Sinifdə, sadəcə akademik bilik qazanmırlar. Biliyi əldə etməyi, onu başqa uşaqlarla birgə axtarmağı öyrənirlər. Belə olan halda əminliklə deyə bilərik ki, fərqli uşaqların bir yerdə öyrənməsi daha yaxşı nəticə verir. Unutmamalıyıq ki, fərdi hazırlıqda qazanılanı kollektiv hazırlıqda da əldə etmək olur. Ancaq insan kollektiv hazırlıqda öyrəndiklərinə fərdi hazırlıq zamanı nail ola bilmir. Uşaqlara münasibətlərlə bağlı nə qədər mühazirə desək də, onlar danışdıqlarımızdan deyil, təcrübə əsasında öyrənirlər. Biz uşaqlara akademik biliklər verə bilərik, ancaq o biliyi bacarığa çevirməyəndə, öz əhəmiyyətini itirir".

Odur ki, birmənalı olaraq dünyada qəbul edilən qənaət ondan ibarətdir ki, əlilliyi olan və ya hər hansı səbəbdən təhsildən uzaqlaşan uşaqların ümumtəhsil məktəbinə cəlb olunması və fərqləndirici xüsusiyyətindən asılı olmayaraq, bütün cəmiyyət üzvlərinin bir sinifdə təhsil alması fərqləndirilənlər də daxil olmaqla, hamının xeyrinədir.

### Maneəni aradan qaldırmağın yollarından biri maarifləndirmədir

Hamı üçün faydalı olan inklüziv təhsilin qarşısında duran ən böyük maneə isə bəzi valideynlərdir. Maraqlıdır, valideynlər niyə inklüziv təhsilə qarşı çıxır?

F.Süleymanovun sözlərinə görə, aparılan sosial tədqiqatlar bunun səbəbini açıq şəkildə ortaya qoyur: "Həyata keçirdiyimiz layihə çərçivəsində bunu da araşdırdıq. Apardığımız sosial tədqiqatın nəticəsi olaraq müəyyən qənaətimiz formalaşdı. 6 regionu - Bakı, Şəki, Quba, Ağcabədi, Cəlilabad və Şamaxını əhatə edən həmin tədqiqatın nəticəsi olaraq hesab edirik ki, sözün əsl mənasında, inklüziv təhsil üçün ən böyük maneə əlilliyi olmayan bəzi uşaqların valideynləridir. Belə ki, valideynlər bu problemi olduğundan böyük göstərməyə çalışırlar. Məsələ çox vaxt sağlamlıq imkanı məhdud uşağın sinifdə, dərsdə problem yaratmağında da olmur. Valideynlər əlilliyi olan uşaqlara stereotipik yanaşırlar. Əslində, müşahidələrimiz onu deməyə əsas verir ki, həmin valideynlər də müəyyən qədər haqlıdırlar. Bütün narazılıqlar məlumatsızlıqdan qaynaqlanır. Odur ki, bu maneəni aradan qaldırmağın yollarından biri məhz maarifləndirmədir".

Bunu nəzərə alaraq, həyata keçirdikləri layihələrdə valideynləri ön planda tuturlar: "Steqmatik düşüncələr uşaqları depressiyaya salır. Maarifləndirmənin ana xəttini bu təşkil edir. Valideynlər bilsinlər ki, bu uşaqlar qeyri-adi uşaqlar deyil. Övladları sinifdə həmin uşaqları olduğu kimi qəbul etməlidirlər. Bütün insanlar, hətta əkizlər belə biri-birindən fərqlənirlər. Odur ki, bəzi fərqləndirici xüsusiyyətə əlillik, yoluxucu xəstəlik kimi baxmaq, onlardan qorxmaq lazım deyil".

İnklüziv təhsilə qarşı çıxanlar, sadəcə sağlam uşaqların valideynləri deyil. F.Süleymanov deyir ki, inklüziv təhsilin vəziyyəti bir çox aspektdən qiymətləndirilib: "Nəticə ondan ibarətdir ki, hər kəs özünü inklüziv təhsil tərəfdarı kimi göstərməyə çalışsa da, bunun belə olmadığını bəzi kateqoriyalarla iş zamanı aydın görmək olur. Məsələn, açıq etiraz edənlər arasında evdə təhsil verən müəllimlər də var".

Bəs, müəllimlər narazılığını nə ilə əsaslandırırlar? Yəni sağlamlıq imkanı məhdud uşağın təhsil aldığı sinifdə tədrisdə keyfiyyətə nail olmaq mümkün deyil?

### Uğurlu nəticələr əldə edən müəllimlər çoxdur

"Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsində müəlimlərin narazılıqlarının səbəbləri də araşdırılıb. Belə məlum olur ki, inklüziv sinifdə təhsilin keyfiyyəti müəllimə görə dəyişir: "Müəllim uşağı təlimə cəlb edə və nəticə etibarilə uğur əldə edə bilmir. O da sağlamlıq imkanı məhdud uşaqla hansısa nəticəyə nail olmağın mümkünsüzlüyü qənaətinə gəlir. Çünki o, uğursuzluğunun səbəbini özündə yox, sağlamlıq imkanı məhdud şagirdində axtarır. Düşünmür ki, nəticə əldə etməməsi uşaqla deyil, onun özü ilə əlaqəlidir. Uşağı dərsə cəlb edə bilmir və s. Halbuki, sağlamlıq imkanı məhdud uşaqların təhsil aldığı sinifdə müasir tədris metodları ilə tədris aparan və uğurlu nəticələr əldə edən müəllimlər çoxdur. Həmin müəllimlər öz təcrübələrini çox həvəslə paylaşırlar. Bir sözlə, reallıq budur ki, əzmkarlığı və səriştəsi olan müəllimlər təlim prosesini qurur və uğur əldə edirlər. Əlilliyin tərifinin də əsas predmetini məhz bu təşkil edir. Əslində, əlillik fərddə deyil, cəmiyyətdədir. Buna da "əlilliyin sosial modeli" deyirik. Daha dəqiq desək, məhdudiyyətləri şəxslərdə axtarmaq əlilliyin tibbi modeli, məhdudiyyətləri ətraf mühitdə axtarmaq isə əlilliyin sosial modeli hesab edilir. Sinifdə müəllim fərdin fəaliyyətinə mane olan səbəbləri aradan qaldırmalıdır. Bir müəllim məhdudiyyətlərin məhz uşaqdan qaynaqlandığını düşünürsə, əlilliyin tibbi modelinə istinad etmiş olur. Bunun əksinə, müəllim əlilliyi olan şagirdin inkişafında müsbət nəticəyə nail ola bilməməsinin səbəblərini araşdırır, effektivlik üçün yollar axtarırsa, o müəllim əlilliyin sosial modelinə istinad etmiş olur ki, bu daha mütərəqqi yanaşmadır. Düzdür, bəzən bu yanaşma daha çox enerji, emosional stabillik tələb edir, ancaq nəticə müsbət olur".

F.Süleymanovun sözlərinə görə, "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi məhz bu problemin həllinə yönəlib: "Bu istiqamətdə fəaliyyət çərçivəsində Avropa Birliyinin maliyyə dəstəyilə 2018-ci ilin may ayından həyata keçirilən layihənin məqsədi müəllimlərin inklüziv təhsil sahəsində tədris imkanlarını artırmaq, eyni zamanda əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyasını və adaptasiyasını təmin etmək üçün tədbirlər görməkdir".

2020-ci ilin sentyabrında başa çatacaq layihə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın qarşıya qoyduğu məqsədlərə uyğun olaraq müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılmasına xidmət edir. Layihə çərçivəsində xarici ekspertlərin iştirakı ilə təlim modulu hazırlanıb. 1000 ibtidai sinif, 400 ali təhsil müəllimi, 250 məktəb direktoru və 1500-dən çox tələbə təlimlərə cəlb edilib. Eyni zamanda valideynlər və layihənin əhatə dairəsinə daxil olan rayonların digər icma üzvləri ilə maarifləndirici seminar və görüşlər təşkil olunub. Layihə çərçivəsində ali təhsil müəssisələri üçün dərslik tərcümə edilib, valideyn və müəllimlər üçün çoxsaylı broşürlər, vəsaitlər çap olunub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin 4 ixtisasının tədris proqramına inklüziv təhsil fənni inteqrasiya edilib.

Qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə bəzi təkliflər də hazırlanıb: "Layihə çərçivəsində işə cəlb olunmuş beynəlxalq ekspert və yerli məsləhətçi tərəfindən inklüziv təhsil sahəsinə aid olan qanunvericilik aktlarının geniş təhlili aparılıb. Ümumilikdə 35 qanunvericilik aktı təhlil olunub. Təhlil çərçivəsi BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nın inklüziv təhsil hüququ haqqında 24-cü maddəsinin tələbləri və həmin maddəyə 4 saylı ümumi şərhdə öz əksini tapan inklüziv təhsilin əsas indikatorlarıdır. Bura, inklüziv təhsilə yanaşmanın sistemli olması, təhsilin bütün pillələrini əhatə etməsi, müəllimlərə müvafiq dəstək sistemlərinin mövcudluğu, bütün təhsilalanların öyrənməsi üçün əlverişli mühitin mövcudluğu, inklüziv təhsilin tətbiqində müxtəlif maraqlı tərəflərlə əməkdaşlıq mexanizmlərinin mövcudluğu və s. göstəricilər aiddir".

Təhlil nəticəsində qanunvericiliyin konvensiyanın tələblərinə uyğunlaşdırılması üzrə tövsiyələr və ölkədə inklüziv təhsilin tətbiqinə dair tədbirlər planı hazırlanıb: "Hesab edirik ki, sənəd əlilliyi olan şəxslərin təhsili ilə bağlı siyasətin təkmilləşdirilməsi və konvensiyanın tələblərinə uyğunlaşdırılması üçün əhəmiyyətli istinad mənbəyi olacaq".

### İnklüziv təhsil fasiləsiz bir prosesdir

F.Süleymanovun fikrincə, təlimlərin əsas komponentlərindən biri inklüziv dəyərlərdir: "Biz humanizm, qarşılıqlı anlayış, sevgi, mərhəmət kimi hisslərin formalaşdırılmasına çalışırıq. Bunun üçün nə qədər vaxt lazım olduğunu müəyyənləşdirmək mümkün deyil. Bu, bir şəxsin, bir ailənin işi deyil, hamının işidir. Məsələ bundadır ki, bütün baryerləri aradan qaldırmağa yönələn inklüziv təhsil, sadəcə əlilliyi olan uşağın məktəbdə təhsil almasından ibarət deyil. Bu, sonuncu mərhələdir. Ondan əvvəl görüləcək çox iş var. İnklüziv təhsil fasiləsiz bir prosesdir. Ən vacib mərhələ uşağın məktəbə gəlməsi olsa da, bu mərhələyədək çox vacib başqa mərhələlər də var. Odur ki, bu mərhələyədək mövcud olan maneələr aradan qaldırılmalıdır. Tədris resursları, məktəbin infrastrukturu, müəllimlərin və məktəb rəhbərliyinin prosesə hazırlığı təmin olunmalıdır. Bu şərtlər təmin olunduqdan sonra əlilliyi olan şəxsin məktəbdə təhsil alması digər uşaqlara mənfi təsir göstərməyəcək".

Bunun üçün ölkəmizdə qanunvericilik bazası mövcuddur. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsindən sonra bu istiqamətdə bir çox işlər görüləcək. Burada praktiki olaraq bütün addımlar göstərilib. Görüləcək tədbirlər və onların nəticəsi bəllidir. İnklüziv təhsil üçün maneələrin aradan qaldırıldığı, inklüziv dəyərlərin bərqərar olduğu bir cəmiyyət çox da uzaqda deyil.